# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 25 (3635) Cümə axşamı / 16-22 iyul 2026-cı il Qiymәti 40 qәpik


MÜSAHİB

## Avropa Şurasından çıxmaq nəyi dəyişəcək?



Asim Mollazadə,
Milli Məclisin deputatı

***IV Şuşa Qlobal Media Forumu region dövlətlərinə, eləcə də beynəlxalq ictimaiyyətə ünvanlanan mühüm mesajlarla yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevin Forumdakı çıxışı və dünyanın müxtəlif ölkələrindən gəlmiş media nümayəndələrinin suallarına verdiyi cavablar müstəqil, ərazi bütövlüyünü və suverenliyini təmin etmiş Azərbaycanın gələcək inkişaf və xarici siyasət kursunun yol xəritəsini bir daha ortaya qoydu. Məlum olduğu kimi, Prezidentin Forumda səsləndirdiyi mühüm məqamlardan biri də Avropa institutlarının, xüsusilə Avropa Şurasının Azərbaycana münasibətdə nümayiş etdirdiyi ikili standartlarla bağlı idi.***

*Azərbaycanın bu təşkilatda olub-olmaması ölkəmizin inkişaf strategiyasını dəyişən amil deyil*

Səh. 3

# Şuşadan dünyaya sülh və həqiqət çağırışı

***Şuşada keçirilən IV Qlobal Media Forumu artıq ənənəvi beynəlxalq platformaya çevrilərək Azərbaycanın qlobal informasiya məkanında artan rolunu bir daha nümayiş etdirdi. "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunan forum dünyanın 53 ölkəsindən 160-a yaxın media nümayəndəsini, 30 xəbər agentliyini, 60-dan çox aparıcı media qurumunu və beynəlxalq təşkilatların təmsilçilərini bir araya gətirdi. Bu faktın özü göstərir ki, Şuşa artıq yalnız Azərbaycanın mədəniyyət paytaxtı deyil, həm də beynəlxalq informasiya və media diplomatiyasının mühüm mərkəzlərindən birinə çevrilməkdədir. Milli Məclisin deputatı Jalə Əliyeva bildirib ki, IV Şuşa Qlobal Media Forumu Azərbaycanın beynəlxalq informasiya siyasətinin uğurlu nümunələrindən biri kimi qiymətləndirilməlidir.***




Onun sözlərinə görə, müasir dövrdə dövlətlərin beynəlxalq nüfuzu təkcə iqtisadi və hərbi güclə müəyyən olunmur, informasiya mühiti və həqiqətlərin dünyaya düzgün çatdırılması da strateji əhəmiyyət kəsb edir. Deputat qeyd edib ki, Şuşa Qlobal Media Forumu Azərbaycanın milli maraqlarının informasiya müstəvisində müdafiəsinə xidmət edən ən mühüm platformalardan biridir. "Forum həm peşəkar media dialoqunu təşviq edir, həm də qlobal informasiya təhlükəsizliyi, dezinformasiya ilə mübarizə, süni intellekt dövründə media etikası və məsuliyyətli jurnalistika kimi aktual məsələlərin müzakirəsinə imkan yaradır", - deyə Jalə Əliyeva bildirib.

Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin forumda iştirakı və beynəlxalq media nümayəndələri ilə açıq dialoqu tədbirin siyasi və diplomatik əhəmiyyətini daha da artırıb. "Dövlət başçısının çoxsaylı sualları səmimi və ətraflı cavablandırması Azərbaycanın şəffaf siyasət yürütdüyünü, beynəlxalq media ilə açıq əməkdaşlığa üstünlük verdiyini nümayiş etdirdi. Eyni zamanda, Qarabağda həyata keçirilən genişmiqyaslı yenidənqurma işlərinin, Böyük Qayıdış proqramının nəticələrinin və regionda formalaşan yeni reallıqların birbaşa yerində nümayiş etdirilməsi forumun praktik əhəmiyyətini artırdı", - deyə o vurğulayıb. J.Əliyeva hesab edir ki, forumun ən mühüm nəticələrindən biri informasiya müharibəsində həqiqətin əsas arqument kimi ön plana çıxarılmasıdır. "Uzun illər ərzində Azərbaycan haqqında qərəzli məlumatlar yayan, faktları təhrif edən bəzi dairələrin iddiaları xarici jurnalistlərin öz müşahidələri fonunda inandırıcılığını itirir. Qarabağda tikilən yeni şəhərlər, bərpa olunan tarixi-mədəni abidələr, doğma torpaqlarına qayıdan sakinlər və həyata keçirilən nəhəng infrastruktur layihələri informasiya manipulyasiyalarına verilən ən tutarlı cavabdır. Şuşadan dünyaya yayılan obyektiv görüntülər və faktlar saxta təbliğatdan daha güclü təsir yaradır", - deyə deputat bildirib. Onun fikrincə, forumun əhəmiyyəti yalnız Azərbaycan üçün deyil, bütövlükdə beynəlxalq media əməkdaşlığı baxımından da böyükdür.

"Burada müxtəlif ölkələrin media nümayəndələri arasında qurulan əlaqələr, fikir mübadiləsi və qarşılıqlı etimad gələcək əməkdaşlıq üçün yeni imkanlar yaradır. Bu isə Azərbaycanın beynəlxalq informasiya məkanında etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirir", - deyə Jalə Əliyeva qeyd edib. Deputat bildirib ki, Şuşada belə mötəbər tədbirin keçirilməsi həm də böyük rəmzi məna daşıyır. "Vaxtilə işğal və vandalizmin simvoluna çevrilmiş şəhər bu gün beynəlxalq dialoq, əməkdaşlıq və sülh ideyalarının müzakirə olunduğu qlobal platformaya çevrilib. Bu dəyişiklik Azərbaycanın əldə etdiyi tarixi Zəfərin və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bərpa və quruculuq siyasətinin məntiqi nəticəsidir", - deyə o bildirib. Jalə Əliyeva vurğulayıb ki, IV Şuşa Qlobal Media Forumu Azərbaycanın informasiya diplomatiyasının növbəti mühüm uğuru kimi tarixə düşəcək. "Forum göstərdi ki, müasir dünyada həqiqətin ən güclü müdafiəçisi faktlardır. Şuşadan verilən mesajlar sülh, əməkdaşlıq və obyektiv informasiya prinsiplərini təşviq etməklə yanaşı, Azərbaycanın beynəlxalq nüfuzunu daha da möhkəmləndirir və ölkəmizin qlobal informasiya gündəliyinin formalaşmasında fəal rol oynadığını bir daha təsdiqləyir", - deyə deputat əlavə edib. "Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlər Azərbaycanın xarici siyasətinin əsas konturlarını və beynəlxalq tərəfdaşlarla münasibətlərə yanaşmasını aydın şəkildə əks etdirir".

*IV Şuşa Qlobal Media Forumu Azərbaycanın informasiya diplomatiyasının yeni zirvəsidir*

*Mövcud geosiyasi reallıqlar fonunda Avropa təsisatlarının Azərbaycana münasibəti daha praqmatik yanaşmaya əsaslanmalıdır*

*Şuşa Qlobal Media Forumu Azərbaycanın müstəqil siyasət yürütdüyünü bir daha bütün dünyaya nümayiş etdirdi*

■ **Bu fikirləri Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib. BMTM sədri qeyd edib ki, mövcud geosiyasi reallıqlar fonunda Avropa təsisatlarının Azərbaycana münasibəti daha praqmatik yanaşmaya əsaslanmalıdır.**

"Rusiya-Ukrayna müharibəsinin davam etməsi və Yaxın Şərqdə uzunmüddətli qeyri-sabitlik fonunda Azərbaycanın Avropa İttifaqı üçün etibarlı strateji tərəfdaş kimi əhəmiyyəti daha da artır. Belə bir şəraitdə Avropa Parlamentinin vaxtaşırı Azərbaycana münasibətdə siyasi motivli qətnamələr qəbul etməsi İttifaqın uzunmüddətli strateji maraqları ilə uzlaşmır. Bu, eyni zamanda, Avropa İttifaqının müxtəlif institutlarının Azərbaycana yanaşmalarında mövcud fərqləri də nümayiş etdirir.

Səh. 2

MÜSAHİB



**Maşallah Rəmzi,**
İranlı ekspert

■ İranın müzakirələri dayandırmasının bir səbəbi yeni dini lider Müctəba Xameneinin atasının intiqamını alacağını bildirməsi ilə bağlıdır

■ ABŞ-də həm Respublikaçılar, həm də Demokratlar yekdilliklə istəyirlər ki, İslam Respublikası süqut etsin

■ Xameneinin dövründə ölkənin bütün siyasi, iqtisadi, ticarət - hər bir sahəsini nəzarətə alan SEPAH faktiki dövləti idarə edir

Səh. 5

GÜNÜN FOTOSU...



Avropa liderləri Kiyevdə

GÜNÜN SİTATI

*"Biz bir-birimizə xeyli kömək edən və əla münasibətlərimizi konkret layihələrə, əyani əməkdaşlığa çevirən dostlarıq"*



**Peter Pelleqrini,**
Slovakiya Prezidenti

KARİKATURA




Makron Fransasının acınacaqlı durumu

## Enerji tariximizdə yeni səhifə

**Zəfər Vəliyev,**
enerji məsələləri üzrə ekspert

BTC, CQBK və Qərb İxrac Boru Kəməri kimi ixrac güclərinin operatorluğunun SOCAR-a ötürülməsi şirkətin illər ərzində formalaşdırdığı milli kadr potensialından və ixrac güclərinin idarə edilməsində topladığı təcrübədən irəli gəlir.

Səh. 7

STATİSTİKA



■ **2025-ci ildə dünyada bərpaolunan enerji üzrə yeni quraşdırılmış güclər 693 giqavat təşkil edərək son 25 ilin ən yüksək göstəricisinə çatıb.**

Ötən ilin sonuna bərpaolunan enerji güclərinin ümumi həcmi 5,2 teravata yüksəlib, bu da qlobal enerji istehsalı güclərinin 49,5 faizini təşkil edir. 2025-ci ildə ümumi yeni enerji güclərinin 85,7 faizi bərpaolunan mənbələrin payına düşüb.



Səh. 3

## Vətən müharibəsinə açılan qapı

PREZİDENTİN İŞ GÜNÜ

## İlham Əliyev Rəcəb Tayyib Ərdoğana başsağlığı verib



**Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu ünvanlayıb. Məktubda deyilir:**

"Hörmətli cənab Prezident, əziz qardaşım, 2016-cı ilin 15 iyul tarixində Türkiyə Respublikasında dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı Vətənlərini qorumaq üçün həyatlarını qurban vermiş bütün şəhidlərin əziz xatirəsini dərin ehtiramla yad edir, onların ailələrinə və qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verirəm. On il əvvəl qardaş Türkiyə müasir tarixinin ən faciəli, eyni zamanda, ən şərəfli səhifələrindən birini yazdı. Dövlətçiliyə, konstitusiya quruluşuna, milli iradəyə və demokratik əsaslara qarşı yönəlmiş xain çevriliş cəhdi Türkiyə xalqının sarsılmaz əzmi, mətinliyi və Vətənə sonsuz sədaqəti sayəsində qətiyyətlə dəf edildi. Minlərlə insanın meydanlara axışaraq sinəsini sipər etməsi, dövlətinə, bayrağına və milli dəyərlərinə sahib çıxması əsl qəhrəmanlıq dastanı kimi əbədi olaraq milli yaddaşa həkk olundu.

Sizin qətiyyətli və uzaqgörən liderliyiniz, xalqınızın Sizin ətrafınızda sıx birləşməsi, çağırışlarınıza dərhal və tərəddüdsüz cavab verməsi həmin taleyüklü gecədə ölkənizi böyük faciələrdən xilas edən əsas amillərdən oldu. Sizin rəhbərliyinizlə Türkiyə bu sınaqdan daha da güclənərək çıxdı, öz milli iradəsini və dövlətçilik ənənələrini bütün dünyaya bir daha nümayiş etdirdi. O tarixi gündə baş verənlər sübut etdi ki, xalq ilə dövlətin birliyi qarşısında heç bir məkrli niyyət, heç bir dağıdıcı qüvvə davam gətirə bilməz. Məhz buna görə də hər il 15 iyulda qeyd edilən "Demokratiya və Milli Birlik Günü" xalqınızın milli həmrəyliyinin, mübarizlik ruhunun, dövlətçilik ənənələrinin və azadlıq iradəsinin simvoludur. Azərbaycan xalqı və dövləti əziz mirasımız olan "Bir millət iki dövlət" prinsipini rəhbər tutaraq həmişə olduğu kimi o həlledici anlarda da qardaş Türkiyə ilə həmrəylik nümayiş etdirdi və onun yanında oldu. Bütün bunlar xalqlarımızın qardaşlığının və birliyinin nə qədər güclü və sarsılmaz olduğunu bir daha təsdiqlədi. Əminəm ki, nəsillərdən-nəsillərə ərməğan qalan güclü Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı daha da möhkəmlənəcək, strateji müttəfiqliyimiz bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf etməyə və yeni məzmunla zənginləşməyə davam edəcəkdir.

Əziz qardaşım, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Türkiyə Respublikasına əmin-amanlıq, firavanlıq və rifah arzulayıram".

## Azərbaycan XİN vətəndaşlara xəbərdarlıq etdi



**Dəfələrlə edilmiş xəbərdarlıqlara baxmayaraq, müxtəlif silahlı münaqişə bölgələrində və yüksək riskli ərazilərdə Azərbaycan vətəndaşlarının fəaliyyət göstərməsi, habelə onların həlak olması və ya müxtəlif dərəcəli bədən xəsarətləri alması halları təəssüf hissi ilə qeydə alınmaqda davam edir.**

Bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi saytında dərc edilən bəyanatında yer alıb.

Nazirlik vurğulayıb ki, xüsusilə, Qara dəniz hövzəsində davam edən hərbi əməliyyatlar, mülki gəmiçiliyə qarşı mövcud təhlükələr, pilotsuz uçuş aparatları, raket və digər silahlardan istifadə edilməsi nəticəsində regionda təhlükəsizlik vəziyyəti son dərəcə həssas olaraq qalır. Hərbi əməliyyatların coğrafiyası və intensivliyi nəzərə alınmaqla, mülki gəmilər və onların ekipaj üzvləri üçün risklər əhəmiyyətli dərəcədə artıb. "Bu çərçivədə, Azərbaycan vətəndaşlarına hərbi əməliyyatların davam etdiyi və ya təhlükəsizlik vəziyyətinin qeyri-sabit olduğu bölgələrə səfər etməkdən, həmin ərazilərdə əmək fəaliyyəti ilə məşğul olmaqdan və ya bu marşrutlar üzrə fəaliyyət göstərən nəqliyyat vasitələrində, o cümlədən dəniz gəmilərində işləməkdən çəkinməyə bir daha çağırış edirik. Bununla yanaşı, rəsmi xəbərdarlıqlara ciddi şəkildə riayət olunmasını və zərurət yarandıqda Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları ilə əlaqə saxlanılmasını tövsiyə edirik", - deyə bəyanatda qeyd edilib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "Zaman" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -1500

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Slovakiya ilə strateji tərəfdaşlıq dərinləşir

***Slovakiya Prezidenti Peter Pelleqrininin səfəri iki ölkə arasında qarşılıqlı münasibətlərin çox yüksəv səviyyədə olmasının əyani göstəricisi kimi dəyərləndirilir. Qeyd edək ki, səfər çərçivəsində Slovakiya Prezidenti Şuşada, Ağdamda və Bakıda olub. Azərbaycan Prezidenti İlham Əliyevlə ikitərəfli münasibətlərin mövcud durumu və gələcək perspektivləri ilə bağlı müzakirələr aparıb. Tərəflər mətbuata birgə bəyanatla da çıxış ediblər.***



*"Biz çox şadıq ki, Slovakiya Qarabağın bərpasında fəal iştirak edir*

## Gündəm

**■ Prezident İlham Əliyev bildirib ki, Bu gün Slovakiya-Azərbaycan siyasi əlaqələri çox yüksək səviyyədədir və qarşılıqlı səfərlər bunu əyani şəkildə göstərir:**

"2024-cü ildə biz strateji tərəfdaşlığa dair Birgə Bəyannamə imzalamışıq və bəyannamənin icrası göz önündədir. Çünki belə fəal siyasi təmaslar və birgə layihələrin icra olunması, əlbəttə ki, güclü siyasi iradə tələb edir. Biz çox şadıq ki, Slovakiya Qarabağın bərpasında fəal iştirak edir və biz bu gün cənab Prezidentlə birlikdə Ağdam rayonunun Baş Qərvənd kəndinə gedəcəyik. Orada Slovakiya şirkəti "Ağıllı kənd" layihəsini icra edir və bu layihə ilə tanış olacağıq. Bu dəstəyə və Qarabağın bərpasına verdiyiniz töhfəyə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Müzakirə edilən məsələlər arasında, təbii ki, ənənəvi məsələlər üstünlük təşkil edirdi. İqtisadi-ticari əlaqələr, energetika sahəsində, hərbi-texniki sahədə əməkdaşlıq və digər sahələr prioritet təşkil edir. Bütün bu məsələlər ətrafında çox səmimi və açıq müzakirələr aparılmışdır. Nümayəndə heyətlərinin üzvləri də bu gün və sabah - daim təmasdadırlar".

**■ Slovakiya Prezidenti Peter Pelleqrini qeyd edib ki, keçmişdəki görüşlər əsnasında tərəflər Qarabağ və onun gələcək inkişafı barədə xeyli danışıblar:** "Bu səbəbdən bu gün nümayəndə heyətindəki həmkarlarımla birgə burada olmaq, bu bölgənin inkişafında əldə edilmiş böyük tərəqqini öz gözlərimizlə görmək böyük şərəfdir.

Mən bu ərazinin azad edilməsindən sonra qısa müddət ərzində burada əldə olunmuş nailiyyətləri ehtiramla və iftixarla qeyd etmək istərdim. Eyni zamanda, mən olduqca şadam və fərəhlənirəm ki, slovak şirkətləri Qarabağın yenidən qurulmasında iştirak edirlər. Qəti şəkildə inanıram ki, onlar burada gələcəkdə icra olunacaq bir çox digər mühüm layihələrə davamlı şəkildə töhfə verəcəklər. Cənab Prezident, Sizin sözlərinizin təsdiqi olaraq qeyd edim ki, Slovakiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq sadə formal bəyannamə deyil. Ölkələrimiz arasında münasibətlər standart diplomatik əlaqələrin hüdudlarını keçir. Biz, həqiqətən, dost ölkələrik. Biz bir-birimizə xeyli kömək edən və əla münasibətlərimizi konkret layihələrə, əyani əməkdaşlığa çevirən dostlarıq".

Onun sözlərinə görə, Azərbaycan mühüm regional iştirakçıdır. O, sabitliyin və inkişafın qarantıdır, Şərqlə Qərbi birləşdirən logistika və nəqliyyat marşrutlarının əsas qovşağı rolunu oynayır. Azərbaycan bu baxımdan mühüm əhəmiyyətə malikdir:

"Cənab Prezident, mən, həmçinin enerji böhranı zamanı Azərbaycanın operativ cavabına görə Sizə və Azərbaycana təşəkkürümü bildirmək istərdim. Həmin vaxt Siz öz hazırlığınızı və arzunuzu bildirdiniz ki, ölkəmizə təbii qaz təchiz olunsun. Bütün bunlar qazın Ukrayna vasitəsilə tranziti dayandırıldıqdan sonra boşluğun doldurulmasına böyük töhfə idi.

Şadam ki, nazirlərimiz 2027-ci ildən sonra enerji təchizatı üçün sabit, uzunmüddətli həll variantının tapılmasında müzakirələri davam etdirəcəklər. Cənab Prezident, mən çox məmnunam ki, bu gün günorta biz yenicə tikilmiş kəndi ziyarət edəcəyik. Mən, həmçinin səmimi minnətdarlığımı bildirmək istərdim ki, bu kənddə yaşayacaq uşaqlar üçün məktəb və ətraf sahə görkəmli tarixi şəxsiyyət, slovak generalı Milan Rastislav Ştefanikin adını daşıyacaq. Beləliklə, Slovakiyanın irsi uzun müddət burada, Qarabağda olacaq və həmin məktəbə gedəcək bütün uşaqların, valideynlərin və müəllimlərin, həmçinin Slovakiyaya bağlılığı olacaq. Biz şadıq ki, Slovakiya ilə Azərbaycan arasında münasibətlər iqtisadiyyatın və diplomatiyanın hüdudlarını keçir. Hər iki ölkənin vətəndaşları get-gedə daha çox səfərlər edirlər. Oktyabrdan etibarən birbaşa uçuşlar başlayacaq. Cənab Prezident, çox məmnunam ki, Sizin Bratislavaya səfərinizdən sonra biz bu fürsəti elan etdik. Lakin indi - 2026-cı ildə bu, artıq reallıqdır. Bununla da iki ölkə bir-birinə daha yaxın olacaq, təhsil, insanlar arasında təmaslar və əlbəttə ki, biznes sahəsində əməkdaşlıq daha da asanlaşacaq".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini iyulun 14-də Ağdam rayonunun Baş Qərvənd kəndində görülən işlərlə tanış olub, Milan Rastislav Ştefanik adına 840 şagird yerlik Baş Qərvənd kənd tam orta məktəb binasının təməlini qoyublar.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Azərbaycan və Slovakiya prezidentlərinə Ağdamın Baş Qərvənd kəndində görülən işlər barədə məlumat verdi.

Baş Qərvənd kəndi Bərdə-Ağdam avtomobil yolunun və Bərdə-Ağdam dəmir yolu xəttinin sağ tərəfində, Ağdam şəhərinin mərkəzindən 18 kilometr məsafədə yerləşir. Uzun illər erməni işğalı altında qalan kənd 2020-ci il noyabrın 20-də azad edilib.

Prezident İlham Əliyev kəndin təməlini 2023-cü il dekabrın 24-də qoyub.

Hazırda kənddə zəruri sosial infrastruktur qurulur, o cümlədən inzibati və xidmət binaları inşa edilir. Burada çoxfunksiyalı inzibati bina, tibb məntəqəsi, tam orta məktəb, uşaq bağçaları olacaq.

Kənddə ümumi uzunluğu 35 kilometr olan avtomobil yolları çəkilir, rabitə sistemi, elektrik, qaz, içməli su və çirkab suların axıdılması şəbəkələri yaradılır. Enerji daşıyıcılarına qənaət etmək məqsədilə Baş Qərvənd kəndində alternativ enerjidən istifadə olunacaq. Azərbaycan və Slovakiya prezidentlərinə Milan Rastislav Ştefanik adına 840 şagird yerlik Baş Qərvənd kənd tam orta məktəbi barədə də məlumat verildi.

Bildirildi ki, məktəbin ərazisi 3 hektardır. Binada ümumilikdə 35 sinif, texnologiya, hərbi hazırlıq, kompüter otaqları, kitabxana, fizika, biologiya və kimya laboratoriyaları yaradılacaq. Burada, eyni zamanda, akt və idman zalları, bufet və digər zəruri tədris infrastrukturu olacaq.

Binanın elektrik təchizatını təmin etmək üçün Günəş panellərinin quraşdırılması nəzərdə tutulur. Məktəbin ərazisində həm şagirdlər, həm də sakinlər üçün qaçış zolağı olan geniş idman meydançası, oyun və istirahət sahələri yaradılacaq, yaşıllıq zolaqları salınacaq. Azərbaycan və Slovakiya prezidentləri məktəbin təməlini qoydular.

Qeyd edək ki, Baş Qərvənd kəndinin inşasında Slovakiya şirkətləri iştirak edirlər. Kənddə inşa olunacaq məktəb isə Slovakiya tərəfindən Azərbaycana hədiyyə olunur. Sonra dövlət başçıları kənddə inşa edilmiş evdə yaradılan şəraitlə tanış oldular. Diqqətə çatdırıldı ki, ümumi ərazisi 480 hektara yaxın olan kəndin tikintisi 2 mərhələdə aparılacaq. Birinci mərhələ 200 hektardan çox sahəni əhatə edir. Bu mərhələdə 3703 nəfərin yaşayışı üçün 851 fərdi ev inşa olunacaq. Evlərdən 170-i ikiotaqlı, 417-si üçotaqlı, 145-i dördotaqlı, 119-u isə beşotaqlıdır.

# Şuşadan dünyaya sülh və həqiqət çağırışı

◂ əvvəli 1-ci səhifədə

Avropa Komissiyası qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq xəttini davam etdirdiyi halda, Avropa Parlamenti bəzi hallarda bu strateji yanaşmadan fərqli siyasi mövqe sərgiləyir", - deyə Fərid Şəfiyev vurğulayıb. Onun sözlərinə görə, Avropa Parlamentinin qəbul etdiyi qətnamələr obyektivlikdən, beynəlxalq hüququn fundamental prinsiplərindən və Cənubi Qafqazda formalaşmaqda olan sülh gündəliyindən uzaqdır.

"Bu sənədlər regiondakı mövcud reallıqları tam əks etdirmir və artıq geridə qalmış münaqişə ritorikasını yenidən siyasi gündəliyə gətirmək cəhdi kimi qiymətləndirilməlidir", - deyə F.Şəfiyev əlavə edib. O bildirib ki, Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda qeyd etdiyi kimi, Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə sabiq ali nümayəndəsi Cozef Borrelin fəaliyyəti dövründə Azərbaycan ilə Avropa Komissiyası arasında münasibətlər ciddi zərbə almışdı. Bunun səbəblərindən biri isə onun korrupsiya iddiaları ilə gündəmə gəlmiş bəzi şəxslərlə, o cümlədən Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okampo ilə yaxın əlaqələridir.

"Bu il Luis Moreno Okampo və oğlu Tomas Moreno Okamponun korrupsiya əməllərinin ifşa edildiyi videoyazılar ictimaiyyətə təqdim olundu. Həmin materiallarda Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsinin keçmiş köməkçilərindən biri ilə təmaslar, eləcə də həmin şəxs vasitəsilə Avropa Parlamentində müxtəlif təşəbbüslərin irəli sürülməsi, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenə təzyiq göstərilməsi və Avropa məhkəmələri vasitəsilə qurumla Azərbaycan arasında enerji əməkdaşlığına təsir göstərmək cəhdləri barədə iddialar yer alır. Xatırladım ki, bu, Luis Moreno Okamponun adı hallanan ilk belə hadisə deyil. BMTM tərəfindən onun fəaliyyəti ilə bağlı geniş araşdırmalar aparılıb və 2023-cü ildə onun qanunsuz fəaliyyətləri, eləcə də maddi-siyasi maraqlar naminə beynəlxalq konvensiyaları yanlış təfsir etməsi ilə



bağlı arqumentlərin yer aldığı və onun "ekspert rəyinin" əsassız və qərəzli xarakterini ortaya qoyan hesabat dərc edilmişdi. Bu səbəbdən hesab edirəm ki, Avropa institutları tərəfindən belə hallar sükutla qarşılanmamalı, etik normalara riayət olunmasına cavabdeh olan müvafiq qurumlar tərəfindən hərtərəfli və şəffaf şəkildə araşdırılmalıdır", - deyə BMTM sədri vurğulayıb.

Şuşa Qlobal Media Forumu Azərbaycanın müstəqil siyasət yürütdüyünü bir daha bütün dünyaya nümayiş etdirdi. Rəsmi Bakı öz mövqeyinin ədalətli və beynəlxalq hüquqa əsaslandığını bəyan edərək siyasi iradəsini göstərdi. Avropa İttifaqı (Aİ) və bu kimi digər beynəlxalq təşkilatların Azərbaycanın milli maraqlarına zidd olan tələblərinin yerinə yetirilməyəcəyi də diqqətə çatdırıldı.

Bu sözləri isə Milli Məclisin deputatı Sadiq Qurbanov IV Şuşa Qlobal Media Forumunun nəticələrinə münasibət bildirərkən deyib. O bildirib ki, Prezident İlham Əliyev forumun açılışında Azərbaycanın qlobal siyasətdəki yerini və rolunu dəqiqliklə izah edərək ölkəmizə qarşı qərəzli mövqeyin də olduğunu nəzərə çatdırdı: "Maraq doğuran isə ondan ibarətdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdikdən sonra bu qərəzli münasibət daha da aqressiv xarakter almağa başladı. Araşdırmalardan sonra məlum oldu ki, Avropa İttifaqının rəhbərliyində təmsil olunan Cozef Borrel kimi muzdla çalışan "siyasi xadimlər" müxtəlif lobbilərin təsiri altında Azərbaycana qarşı qarayaxma kampaniyası aparır. Əlbəttə ki, bu kampaniyanın aparılması qarşılıqsız olmur. Bir halda ki, Aİ kimi mötəbər bir qurumun rəhbəri elan edilən demokratiya prinsiplərini bir kənara atıb erməni lobbisinin istəyinə uyğun hərəkət edərək Azərbaycana qarşı qərəzli sənədlərin qəbul olunmasına imkan yaradacaqsa onda Azərbaycanın bu qurumda yeri yoxdur. Bu məsələni Prezident İlham Əliyev Forumun açılışında söylədiyi nitqində aydın şəkildə izah etdi:

"Biz onlara qarşı heç bir səhv addım atmamışıq. Həmin ədalətsiz hərəkəti onlar ediblər və buna görə onlar da cəsarət tapıb geriyə çəkilməlidirlər, böyük səhvə yol verdiklərini etiraf etməlidirlər. Bilirsiniz, mən məsələ ilə bağlı öz fikrimi dəfələrlə bildirmişəm. Əgər Azərbaycan Avropa Şurasını tam tərk edərsə, ölkədə bunu hətta heç kəs hiss etməyəcək. Yəni orada olmaq və ya olmamaq çox şeyi dəyişmir", - deyən Azərbaycan Prezidenti qurumun ədalətli olmasının zəruriliyini qeyd etdi".

"Avropa qurumları 30 ilə yaxın bir müddətdə Azərbaycanın işğala, soyqırımına məruz qalmasına göz yumdu. Milyondan artıq insanın öz doğma torpağından, evindən qovulmasına, malının, mülkünün yağmalanmasına heç bir münasibət bildirmədilər. Lakin Azərbaycan Qarabağı azad edib regionda əməkdaşlıq üçün yeni reallıqlar yaratdıqdan, sülh prosesi başladıqdan sonra Aİ-nin Azərbaycanı qaralayan sənədlər qəbul etməsi hansı məqsədlərə xidmət edir? Bu sula yuxarıda qismən cavan verdik. Aİ Cozef Borrel kimi erməni lobbisinin təsirində olan qərəzli adamların xidməti sahəsində beynəlxalq aləmdə öz nüfuzunu və ona olan inamı itirib. Digər bir məsələ də insan hüquqları və demokratik mühitlə əlaqədardır. Əvvəla onu qeyd edim ki, insan hüquqları məsələsi çoxdandır ki, bu və ya digər dövlətə qarşı təzyiq vasitəsi kimi istifadə olunur. Şuşa Qlobal Media Forumu Azərbaycanda söz və mətbuat azadlığının olduğunu göstərir.

Ölkənin Prezidenti çoxsaylı yerli və beynəlxalq səviyyəli media nümayəndələri qarşısında oturub müxtəlif suallara cavab verir ki, bu da media və jurnalistlərə böyük hörmətin nümayişidir. Başqa bir məsələ: Ermənistanda keçirilən mitinq və kütləvi aksiyalarda siyasi mövqeyini ifadə edən insanların döyülməsi, hakimiyyətin siyasi rəqiblərinin həbs edilməsi və digər neqativ hallar nədənsə Aİ-də müzakirə olunmur, sənəd qəbul edilmir. Lakin Azərbaycanda, necə deyərlər, birinin burnu qanayan kimi aləm dəyir bir-birinə. Bütün bunlar Aİ və digər Avropa strukturlarının ikili standartlar siyasətindən çıxış etdiyini deməyə əsas verir ki, bu da Azərbaycan üçün qəbuledilməzdir", - deyə deputat qeyd edib.

O vurğulayıb ki, Şuşa Qlobal Media Forumunda bu məsələlər dünya ictimaiyyətinə açıqlandı, media nümayəndələri həqiqətin nədən ibarət olduğunu bildilər.

✍ *Tahirə Qafarlı*

# Avropa Şurasından çıxmaq nəyi dəyişəcək?

**IV Şuşa Qlobal Media Forumu region dövlətlərinə, eləcə də beynəlxalq ictimaiyyətə ünvanlanan mühüm mesajlarla yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevin Forumdakı çıxışı və dünyanın müxtəlif ölkələrindən gəlmiş media nümayəndələrinin suallarına verdiyi cavablar müstəqil, ərazi bütövlüyünü və suverenliyini təmin etmiş Azərbaycanın gələcək inkişaf və xarici siyasət kursunun yol xəritəsini bir daha ortaya qoydu. Məlum olduğu kimi, Prezidentin Forumda səsləndirdiyi mühüm məqamlardan biri də Avropa institutlarının, xüsusilə Avropa Şurasının Azərbaycana münasibətdə nümayiş etdirdiyi ikili standartlarla bağlı idi. Dövlət başçısı bu məsələyə toxunaraq Avropa Şurasının fəaliyyəti ilə bağlı kifayət qədər sərt və prinsipial mesajlar verdi. Müsahibimiz Milli Məclisin deputatı Asim Mollazadədir.**



**Asim Mollazadə,**
Milli Məclisin deputatı

## Müsahib

***- Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda Avropa Şurasına ünvanladığı mesajları necə qiymətləndirirsiniz? Bu bəyanatlar hansı siyasi zərurətdən irəli gəlir?***

- Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda Avropa Şurasına ünvanladığı fikirlər tamamilə reallığa söykənir. Azərbaycan uzun illər bu təşkilatın üzvü olub və həmin müddətdə onun fəaliyyətində baş verən prosesləri yaxından izləmək imkanı qazanıb. Bu təcrübə göstərdi ki, təşkilat daxilində bəzən korrupsiya, siyasi maraqların üstün tutulması və ikili standartlar kimi hallara rast gəlinir.

Təəssüf doğuran əsas məqam ondan ibarətdir ki, Avropa Şurasında fəaliyyət göstərən bəzi siyasətçilər Avropa dəyərlərini şəxsi maraqlar və maddi qazanc naminə çox asanlıqla gözdən salıblar. Belə yanaşma təkcə ayrı-ayrı siyasətçilərin nüfuzuna deyil, bütövlükdə Avropa Şurasının və digər Avropa institutlarının etibarlılığına, beynəlxalq imicinə ciddi zərbə vurur. Bu, Avropa təsisatlarının özlərinin bəyan etdikləri prinsiplərə inamı sarsıdan təhlükəli tendensiyadır.

Müasir dünyada şəffaflıq əsas tələblərdən birinə çevrilib. Məhz bu şəffaflıq sayəsində korrupsiya halları, qanun pozuntuları və qeyri-etik davranışlar əvvəlkindən daha açıq şəkildə üzə çıxır. Eyni zamanda, məsuliyyətsizlik, islamofobiya, antisemitizm, ayrı-seçkilik və ikili standartlar kimi halların mövcudluğu həmin təşkilatların bəyan etdikləri demokratik dəyərlərlə real fəaliyyətləri arasında ciddi ziddiyyətlərin olduğunu göstərir. Nəticə etibarilə, bu cür yanaşmalar Avropa Şurası və digər Avropa institutları haqqında beynəlxalq ictimaiyyətdə mənfi təsəvvür formalaşdırır, onların nüfuzuna və etibarlılığına ciddi xələl gətirir. Məhz buna görə də Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər təkcə Azərbaycanın mövqeyi deyil, həm də uzun illər ərzində müşahidə olunan problemlərin açıq ifadəsi kimi qiymətləndirilməlidir.

***- Azərbaycanın Avropa Şurası və AŞPA ilə münasibətlərində son illər müşahidə olunan gərginliyin əsas səbəbləri nələrdir?***

- Azərbaycanın öz siyasi iradəsini ortaya qoyaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etmək qətiyyəti, təbii olaraq, xaricdə güclü maliyyə və siyasi imkanlara malik erməni diasporunu, eləcə də onlarla eyni mövqedən çıxış edən müəyyən siyasi dairələri ölkəmizə qarşı səfərbər etdi. Nəticədə müxtəlif beynəlxalq platformalarda ölkəmizə qarşı qərəzli qətnamələr, bəyanatlar, qərarlar və digər siyasi sənədlər qəbul olundu.

Halbuki Azərbaycanın məqsədi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq işğal altında olan torpaqlarını azad etmək, ərazi bütövlüyünü bərpa etmək və uzun illər doğma yurdlarından didərgin salınmış yüz minlərlə məcburi köçkünün öz evlərinə qayıdışını təmin etmək idi. Bu, Azərbaycanın beynəlxalq hüquqdan irəli gələn ən təbii və qanuni haqqı idi.

Avropada və digər ölkələrdə güclü təsir imkanlarına malik erməni diasporu bu prosesi fərqli müstəviyə yönəltməyə çalışdı, müxtəlif siyasi institutlarda Azərbaycana qarşı mənfi rəy formalaşdırmağa cəhd göstərdi və bunun nəticəsində bir sıra hallarda qərəzli yanaşmaların ortaya çıxmasına təsir etdi.

Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq qəbul etdiyi qərarlar obyektiv deyil, ikili standartlar prizmasından qiymətləndirildi. Bu isə beynəlxalq təsisatların ədalət və qərəzsizlik prinsiplərinə ciddi kölgə saldı. Bu prosesdə, xüsusilə Avropanın aparıcı dövlətlərindən biri olan Fransanın mövqeyi diqqət çəkir. Məlumdur ki, Avropada ən güclü və təşkilatlanmış erməni icmalarından bəziləri məhz Fransa, Niderland və Belçikada fəaliyyət göstərir. Bu amil həmin ölkələrin siyasi dairələrində erməni lobbisinin təsir imkanlarını daha da artırıb və bir sıra hallarda qəbul edilən qərarların obyektivliyinə təsir göstərib. Eyni zamanda, müəyyən siyasi dairələrin fəaliyyətində keçmiş sovet siyasi idarəetmə ənənələrini - Beriyanı xatırladan yanaşmaların müşahidə olunması da diqqətdən kənarda qalmır. Keçmiş kommunist idarəçilik sistemindən miras qalan təsir mexanizmləri və həmin düşüncə tərzinə bağlı olan bəzi siyasi qruplar müəyyən məsələlərdə ədalətli mövqedən deyil, siyasi maraqlardan çıxış etdilər. Nəticədə demokratiya, insan hüquqları və beynəlxalq hüquq kimi prinsiplərdən daha çox geosiyasi maraqlar üstün tutuldu və bu da Avropa institutlarının obyektivliyinə dair ciddi suallar yaratdı.

***- Bəzi ekspertlər hesab edirlər ki, AŞ PA-da yaranmış gərginliyə baxmayaraq, Azərbaycan Avropa institutları ilə münasibətləri qoruyub saxlamalıdır. Siz bu məsələyə necə baxırsınız? Azərbaycanın Avropa Şurasından çıxması nə dərəcədə realdır?***

- Mən burada mühüm bir məqamı xüsusi qeyd etmək istərdim. Avropa Şurası və ya Avropa Parlamentində fəaliyyət göstərən bəzi siyasətçilərlə Avropa Birliyinin icra strukturlarını və üzv dövlətlərin hökumətlərini eyniləşdirmək düzgün deyil. Bir sıra Avropa ölkələrinin hökumətləri çox yaxşı anlayırlar ki, Azərbaycanla əməkdaşlıq onların strateji maraqlarına cavab verir. Burada söhbət, ilk növbədə, enerji təhlükəsizliyindən gedir.

Azərbaycan bu gün Avropanın etibarlı enerji tərəfdaşlarından biridir. Təkcə neft və təbii qaz ixracı deyil, eyni zamanda yaşıl enerji layihələrinin həyata keçirilməsi də Avropa ölkələrində böyük maraq doğurur. Xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra Azərbaycanın formalaşdırdığı nəqliyyat-logistika infrastrukturu və Orta Dəhliz Avropa üçün alternativ və etibarlı kommunikasiya marşrutuna çevrilib. Azərbaycanın və tərəfdaşlarının iştirakı ilə Asiya ilə Avropanı birləşdirən yeni nəqliyyat sistemi formalaşır və Avropa dövlətləri bunun onlar üçün həyati əhəmiyyət daşıdığını çox yaxşı anlayırlar.

Məhz buna görə də bir çox Avropa hökumətləri öz milli maraqlarından çıxış edərək Azərbaycanla münasibətləri daha da inkişaf etdirməyə, yeni əməkdaşlıq formatları qurmağa çalışırlar. Yəni burada aydın fərq görünür. Bir tərəfdə müxtəlif lobbi qruplarının təsiri altında fəaliyyət göstərən və siyasi qərəz nümayiş etdirən ayrı-ayrı siyasətçilər var, digər tərəfdə isə dövlətlərin real milli maraqları dayanır. Həmin maraqlar Avropa ölkələrini Azərbaycanla əməkdaşlığı genişləndirməyə sövq edir.

Azərbaycanın Avropa Şurasından çıxması məsələsinə gəlincə, Prezident İlham Əliyevin bu mövzuda səsləndirdiyi fikirlər kifayət qədər aydındır. Açıq demək lazımdır ki, Azərbaycanın bu təşkilatda olub-olmaması ölkəmizin inkişaf strategiyasını dəyişən amil deyil. Azərbaycan öz suveren siyasətini həyata keçirən dövlətdir və milli maraqlarını hər hansı təşkilatın üzvlüyündən asılı şəkildə müəyyənləşdirmir.

Bizim istəyimiz həmişə ondan ibarət olub ki, Avropa Şurası özünün bəyan etdiyi dəyərlərə - beynəlxalq hüquqa, ədalətə, insan hüquqlarına və bərabər münasibət prinsipinə sadiq qalsın. Ümid edirdik ki, bu təşkilat Azərbaycanın ərazi bütövlüyünün bərpasına, münaqişənin beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə həllinə, işğal altında olan torpaqların azad edilməsinə və məcburi köçkünlərin doğma yurdlarına qayıtmasına dəstək verəcək. Təəssüf ki, praktikada bunun əksini gördük. Təşkilatın bəyan etdiyi prinsiplərlə real fəaliyyəti arasında ciddi fərqlər ortaya çıxdı və bir çox hallarda siyasi maraqlar hüquqi prinsiplərdən üstün tutuldu.

***- Bu gərginlikdə əsas səbəbkar kimdir?***

- Avropa ilə münasibətləri gərginləşdirən Azərbaycan deyil. Bu münasibətlərə xələl gətirən, illər boyu erməni lobbisinin və müxtəlif maraq qruplarının təsiri altında fəaliyyət göstərən bəzi siyasətçilərdir. Müxtəlif vaxtlarda Ruben Vardanyan və Samvel Karapetyan kimi şəxslərlə əlaqələndirilən maliyyə və lobbi şəbəkələrinin Avropa siyasətinə təsiri barədə kifayət qədər faktlar və müzakirələr mövcuddur. Məhz belə təsirlər nəticəsində Azərbaycana münasibətdə qərəzli yanaşmalar formalaşıb. Azərbaycanın heç vaxt hər hansı dövlət və ya beynəlxalq təşkilatla münasibətləri gərginləşdirmək kimi məqsədi olmayıb.

Əksinə, ölkəmiz qarşılıqlı hörmətə, beynəlxalq hüquqa və bərabərhüquqlu əməkdaşlığa əsaslanan münasibətlərin tərəfdarıdır. Bu gün Azərbaycanın əsas prioritetləri tamamilə fərqlidir. Biz qalib dövlətik, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etmişik. Qarşıda duran əsas vəzifə Böyük Qayıdış proqramının tam həyata keçirilməsi, azad olunmuş ərazilərin bərpası, iqtisadiyyatın daha da gücləndirilməsi və şaxələndirilməsi, vətəndaşların rifahının yüksəldilməsidir. Məhz bu istiqamətlər Azərbaycan dövləti və xalqı üçün əsas strateji prioritetlərdir və bütün fəaliyyətimiz də bu məqsədlərə xidmət edir.

***- Azərbaycanın Avropa Şurası ilə münasibətlərinin daha da pisləşməsi ölkənin beynəlxalq mövqeyinə və Avropa institutları ilə əməkdaşlığına necə təsir göstərə bilər?***

- Görünən odur ki, Avropa İttifaqının icra strukturlarını təmsil edən yüksək vəzifəli rəsmilər və bir sıra Avropa ölkələrinin siyasətçiləri mütəmadi olaraq Azərbaycana səfərlər edir, danışıqlar aparır və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bildirirlər. Xüsusilə enerji, nəqliyyat və logistika layihələrinə investisiya yatırmağa hazır olduqlarını ifadə edirlər. Bu da onu göstərir ki, Azərbaycanın yaratdığı enerji və nəqliyyat infrastrukturu Avropa üçün strateji əhəmiyyət daşıyır. Avropa ölkələri Azərbaycanın etibarlı tərəfdaş kimi bu layihələrin davamlılığını və təhlükəsizliyini təmin etməsində maraqlıdır.

***- Şuşadan verilən bu mesajları Avropa strukturlarına siyasi xəbərdarlıq kimi qiymətləndirmək olarmı? Bu çağırışların qarşı tərəfdə hansı reaksiyalara səbəb olacağı gözlənilir?***

- Burada bir ifadə yadıma düşür: " Karvan öz yolu ilə gedir". Hesab edirəm, Prezident İlham Əliyev Şuşa Qlobal Media Forumundakı çıxışında bütün məsələləri açıq şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. O, Azərbaycana qarşı illərdir tətbiq olunan təzyiqləri, ikili standartları və qərəzli yanaşmaları faktlarla dünya ictimaiyyətinə təqdim etdi.

***- Hazırkı geosiyasi şəraitdə Azərbaycan-Avropa Şurası münasibətlərinin normallaşması üçün hansı addımlar atılmalıdır və bunun perspektivlərini necə görürsüz?***

"

*Azərbaycanın bu təşkilatda olub-olması ölkəmizin inkişaf strategiyasını dəyişən amil deyil*

- Hesab edirəm, münasibətlərin normallaşması üçün ilk addımları məhz Avropa institutları atmalıdır. Bir daha vurğulamaq istəyirəm ki, Azərbaycanın Avropa Şurasında iştirak edib-etməməsi ölkənin daxili inkişaf strategiyasına, siyasi kursuna və milli maraqlarına əsaslanan fəaliyyətinə heç bir təsir göstərməyəcək. Azərbaycan öz dövlət və xalq maraqlarını rəhbər tutaraq inkişaf yolunu davam etdirir və bu istiqamətdə ardıcıl siyasət həyata keçirir.

Əgər Avropa ölkələri və Avropa platformaları Azərbaycan vasitəsilə öz enerji təhlükəsizliyini təmin etməyi, nəqliyyat-logistika layihələrindən faydalanmağı və strateji əməkdaşlığı genişləndirməyi hədəfləyirlərsə, ilk növbədə Azərbaycana münasibətdə qərəzli və ikili standartlara əsaslanan siyasətlərinə yenidən baxmalıdırlar. Qarşılıqlı hörmətə və bərabərhüquqlu əməkdaşlığa söykənən münasibətlər olmadan uzunmüddətli tərəfdaşlıq qurmaq mümkün deyil. Məhz bu baxımdan, Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda səsləndirdiyi mesajlar da Avropa ilə münasibətlərin daha sağlam əsaslar üzərində qurulmasına yönəlmiş çağırış kimi qiymətləndirilməlidir. Həmin mesajlar qarşıdurmanın dərinləşdirilməsinə deyil, mövcud gərginliyin aradan qaldırılmasına, beynəlxalq hüquqa, qarşılıqlı hörmətə və obyektiv yanaşmaya əsaslanan əməkdaşlığın formalaşmasına xidmət edir.

✍ ***Tahirə Qafarlı***



# Vətən müharibəsinə açılan qapı

***İyul döyüşləri - Tovuz döyüşlərinin ildönümüdür. Bu döyüş Azərbaycan Ordusunun savaş qabiliyyətinin nümayişi baxımından mühüm tarixi hadisə kimi, bu gün də hərbçi və siyasətçilər tərəfindən təhlil olunur. İyul döyüşlərində əldə olunan hərbi təcrübənin 44 günlük Vətən müharibəsinin gedişinə və planlaşdırılmasına təsirləri xüsusilə qeyd olunur. Bu baxımdan, Tovuz döyüşləri Vətən müharibəsinin hərbi baxımdan hazırlıq mərhələsi hesab edilir.***

## Gündəm

■ **Hərbi ekspert Şair Ramaldanov bildirir ki, Tovuz istiqaməti Azərbaycan, düşmən üçün strateji əhəmiyyət daşıyan bir bölgə idi. Bu istiqamət mühüm logistika marşrutlarının keçdiyi ərazi hesab olunurdu.**

Azərbaycanın əsas nəqliyyat və enerji xətləri Ermənistan sərhədinə yaxın ərazilərdən keçdiyinə görə, bu rayon xüsusi strateji əhəmiyyətə malik idi.Təbii ki, düşmən də Tovuz istiqamətini daim özü üçün vacib hesab edir, burada müxtəlif təxribatlar törətməyə çalışırdı. Azərbaycan Ordusu bütün bu təxribatların qarşısını qətiyyətlə alır, düşmənə layiqli cavab verirdi: "Tovuz hadisələrinə daha geniş baxdıqda, həmin hadisələrdən əvvəl baş verən proseslər də diqqəti cəlb edir. Düşmən, artıq öz işğalçılıq siyasətini davam etdirmək niyyətində olduğunu gizlətmirdi.

Ermənistan tərəfindən verilən bəyanatlar və nümayiş etdirilən davranışlar göstərirdi ki, onlar işğal faktı ilə kifayətlənmək niyyətində deyillər və imkan yarandığı halda yeni ərazilərə qarşı da iddialar irəli sürə bilərlər. Xüsusilə Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonra Ermənistanın işğalçılıq siyasətinin mahiyyəti daha açıq şəkildə ortaya çıxdı. Aydın oldu ki, qarşı tərəf konstruktiv mövqe tutmaq niyyətində deyil və Azərbaycan öz torpaqlarını yalnız danışıqlar yolu ilə deyil, zərurət yaranacağı təqdirdə hərbi-siyasi vasitələrlə də azad etməyə hazır olmalıdır. Məhz bu baxımdan Tovuz hadisələri sonrakı proseslərə ciddi təsir göstərdi, Vətən müharibəsinə aparan mərhələnin mühüm halqalarından birinə çevrildi və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək istiqamətində atacağı addımların formalaşmasına mühüm təkan verdi".

Hərbi ekspert daha sonra deyir: "Azərbaycan üçün strateji əhəmiyyət daşıyan, coğrafi baxımdan son dərəcə vacib bir istiqamətdə Azərbaycan Ordusu qətiyyətli cavab tədbirləri həyata keçirərək düşmənə ciddi itkilər verdi və onu niyyətlərindən geri çəkilməyə məcbur etdi. Bu döyüşlər, demək olar ki, bütün respublikada böyük rezonans doğuran hadisələrdən biri oldu. Tovuz hadisələri başlayan zaman Azərbaycanın elə bir rayonu yox idi ki, orada gənclər səfərbərlik və hərbi çağırış idarələrinə axışmasınlar. Minlərlə gənc könüllü şəkildə ordu sıralarına qoşulmaq, Vətənin müdafiəsində iştirak etmək istədiyini bildirirdi. Faktiki olaraq, xalq arasında böyük bir könüllülük hərəkatı formalaşmışdı.

Xalqımız bu mövqeni tam dəstəkləyirdi və bununla göstərirdi ki, Ali Baş Komandanın ətrafında sıx birləşib, onun verəcəyi hər bir əmri yerinə yetirməyə hazırdır. Tovuz hadisələrindən əvvəl, hələ Aprel döyüşlərindən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun imkanlarını yüksək qiymətləndirərək bildirmişdi ki, Azərbaycan Ordusu qısa müddət ərzində işğalçı qüvvələri darmadağın etməyə və ölkənin ərazi bütövlüyünü bərpa etməyə qadirdir. Əslində, qələbənin ilk anonsu da məhz həmin dövrdə verilmişdi. Xalqın birliyi və cəmiyyətin nümayiş etdirdiyi həmrəylik, əlbəttə ki, Prezidentin diqqətindən kənarda qala bilməzdi. Bununla belə, Prezident sonrakı çıxışlarında dəfələrlə vurğulayırdı ki, Qarabağın və işğal altında olan bütün torpaqların azad edilməsi hər zaman dövlət siyasətinin əsas prioritetlərindən biri olub və bu istiqamətdə davamlı iş aparılıb. Tovuz hadisələrindən sonra həmin dövrü xatırlasaq, Prezident İlham Əliyevin "diplomatiyada hücum" ifadəsini işlətməsi xüsusi diqqət çəkirdi. O zaman bir çoxları bu yanaşmanın mahiyyətini tam anlaya bilmirdi, çünki diplomatiya ilə hücum anlayışlarının bir arada işlədilməsi qeyri-adi görünürdü.

"

*Tovuz döyüşləri Vətən müharibəsinə açılan qapı idi*

*Bu hadisələr cəmiyyətdə psixoloji baxımdan yeni bir oyanış yaratdı*

Prezident yaxşı anlayırdı ki, Aprel döyüşlərindən sonra beynəlxalq müstəvidə formalaşmış vəziyyəti, xarici riskləri və geosiyasi reallıqları düzgün təhlil etmək lazımdır. O bilirdi ki, bu risklər neytrallaşdırılmadan Azərbaycan öz haqq işinə başlasa belə, bəzi böyük güclər ölkəmizin ərazi bütövlüyünü tam bərpa etməsinə maneə olmağa çalışa bilərlər. Bu baxımdan, əsas vəzifələrdən biri diplomatik müstəvidə lazımi nəticələri əldə etmək idi. Həmin dövrdə Azərbaycan Ordusu hazır idi, xalq hazır idi və cəmiyyət qələbə əzmi nümayiş etdirirdi. Qalan əsas məsələ beynəlxalq arenada Azərbaycanın mövqeyini gücləndirmək və siyasi-diplomatik zəmini formalaşdırmaqdan ibarət idi. Tovuz hadisələrindən sonra Prezident İlham Əliyev beynəlxalq tədbirlərdə, müxtəlif platformalarda və yüksək səviyyəli görüşlərdə Azərbaycanın başqa yolunun qalmadığını, münaqişənin həlli üçün gec-tez güc variantına müraciət etmək məcburiyyətində qala biləcəyini açıq şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırırdı. Beləliklə, dünya ictimaiyyəti də tədricən regionda baş verə biləcək proseslərə və Azərbaycanın mövqeyinə hazırlanırdı. Həmin dövrdə beynəlxalq müstəvidə gedən proseslər, ayrı-ayrı dövlətlərin mövqeləri və verilən reaksiyalar sonrakı hadisələrin formalaşmasında mühüm rol oynadı. Biz görürük ki, bütün bu proseslər cənab Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilirdi və dövlət başçısı qarşıya qoyulan hədəfləri dəqiq şəkildə müəyyənləşdirmişdi. Mən deyərdim ki, ilk böyük qələbə məhz diplomatiya sahəsində qazanıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev diplomatik müstəvidə qarşıya qoyulan məqsədlərə nail olaraq, fəal və hücum diplomatiyası həyata keçirməklə ilk qələbəsini məhz bu sahədə əldə etdi".

Ş.Ramaldanov bildirir ki, Tovuz hadisələrindən sonra Azərbaycan xalqı bütövlükdə Prezidentin ətrafında sıx birləşdi. Xalq öz mövqeyini ortaya qoyaraq göstərdi ki, Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi məsələsində dövlətin və Ali Baş Komandanın yanında dayanmağa hazırdır: "Hamımıza məlumdur ki, Tovuz hadisələri zamanı Azərbaycanın yüksəkrütbəli hərbçiləri, general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və digər zabitlər ön xətdə döyüşərək şəhidlik zirvəsinə ucaldılar. Bu fakt bir daha göstərdi ki, Azərbaycan Ordusu Vətənin müdafiəsi naminə ən yüksək fədakarlığa hazırdır. Eyni zamanda, yüksəkrütbəli zabitlərin də Azərbaycan torpağının hər qarışını qorumaq üçün canlarını qurban verməyə hazır olmaları orduda hökm sürən vətənpərvərlik ruhunun bariz nümunəsi idi.

▸▸ Səh. 4

# İrsin sənədləşdirilməsi ona görə vacibdir ki...

## Layihə

***Qədim sivilizasiyaların qovuşduğu məkanda yerləşən Azərbaycan minilliklər boyu müxtəlif mədəniyyətlərin, dinlərin və ticarət yollarının kəsişmə nöqtəsi olub. Bu coğrafiya təkcə tarixi hadisələrin şahidi deyil, həm də zəngin memarlıq nümunələrinin, qədim yaşayış məskənlərinin, nadir təbiət abidələrinin, musiqi ənənələrinin, sənətkarlıq məktəblərinin və folklor irsinin formalaşdığı bir məkandır. Məhz buna görə Azərbaycanın mədəni irsi təkcə milli sərvət deyil, bəşəriyyətin ortaq dəyəri kimi qəbul edilir. Bu dəyərlərin beynəlxalq səviyyədə tanınması və qorunmasında UNESCO mühüm rol oynayır. Mövzu ilə bağlı həmsöhbətimiz AMEA Arxeologiya və Antropologiya İnstitutunun İslam dövrü arxeologiyası şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlillidir.***

***- Fariz müəllim, son illər Azərbaycanın UNESCO siyahılarında təmsil olunan mədəni irs nümunələrinin sayının artmasını necə qiymətləndirirsiniz?***

- Azərbaycanın UNESCO siyahılarında təmsilçiliyinin genişlənməsini son dərəcə müsbət və əhəmiyyətli hadisə kimi qiymətləndirirəm. Hazırda UNESCO-nun Dünya İrsi Siyahısında Azərbaycana aid beş obyekt mövcuddur. Onlardan dördü mədəni, biri isə təbii irs nümunəsidir. Bununla yanaşı, Azərbaycanın 24 qeyri-maddi mədəni irs elementi UNESCO -nun müvafiq siyahılarında təmsil olunur. Bu göstəricilər Azərbaycanın çoxşaxəli və yaşamaqda olan mədəniyyətə malik olduğunu nümayiş etdirir. İçərişəhər, Qobustan, Şəkinin tarixi mərkəzi və Xınalıq-Köç Yolu mədəni landşaftı ölkəmizin müxtəlif tarixi mərhələlərini və mədəni landşaft modellərini dünyaya təqdim edir. Muğam, aşıq sənəti, xalçaçılıq, kəlağayı, çövkən, dolma, çay mədəniyyəti, Lahıc misgərlik sənəti, təndir çörəyi və digər elementlər isə xalqımızın gündəlik həyatında yaşatdığı ənənələrin beynəlxalq səviyyədə tanınmasına xidmət edir. Mən UNESCO siyahısına daxil edilməni prosesin sonu deyil, yeni və daha məsuliyyətli mərhələnin başlanğıcı hesab edirəm. UNESCO statusu yalnız fəxr və turizm brendi demək deyil. Bu status irsin autentikliyinin, bütövlüyünün, tarixi mühitinin və onu yaşadan icmaların qorunması öhdəliyidir. Hər bir irs nümunəsi üçün elmi əsaslandırılmış idarəetmə planı, davamlı monitorinq, konservasiya proqramı və yerli icmanın iştirakı təmin edilməlidir. Bəzən, bütün diqqət irs nümunəsinin siyahıya salınmasına yönəlir, sonrakı qoruma və idarəetmə məsələləri isə ikinci planda qalır. Halbuki siyahıya daxil edilməkdən daha çətin olan həmin irsi gələcək nəsillər üçün öz həqiqi mahiyyəti ilə qorumaqdır. YUNESKO adı onun qarşısında götürülmüş beynəlxalq məsuliyyətdir.

***- Sizcə, Azərbaycanın UNESCO siyahısına daxil edilə biləcək başqa hansı mədəni irs nümunələri var?***

- Azərbaycanın bu istiqamətdə kifayət qədər geniş potensialı var. Hazırda UNESCO -nun Dünya İrsi üzrə İlkin Siyahısında Azərbaycandan 12 obyekt mövcuddur. Bunların sırasında Şuşa və Ordubad tarix-memarlıq qoruqları, Abşeronun müdafiə tikililəri, Atəşgah, Naxçıvan türbələri, Azıx və Tağlar mağaraları, Xudafərin körpüləri, Qədim Qəbələ şəhəri, Gəmiqaya və Göygöl tarixi-mədəni və təbii kompleksi kimi mühüm abidələr yer alır. UNESCO sənədini hazırladığım Qədim Qəbələ şəhərinin İlkin Siyahıya təqdim olunması xüsusilə əhəmiyyətlidir. Bu şəhər Qafqaz Albaniyasının siyasi, iqtisadi və mədəni tarixini əks etdirən böyük arxeoloji kompleksdir.



**Fariz Xəlilli,**
AMEA-nın aparıcı elmi işçisi,
tarix üzrə fəlsəfə doktoru

Mən öz tədqiqatlarımın nəticələrindən çıxış edərək, gələcəkdə Şirvanın tarixi-mədəni landşaftının kompleks və ya serial nominasiya şəklində hazırlanmasını məqsədəuyğun hesab edirəm. Şamaxı, Orta əsr Ağsu şəhəri, Basqal, Kələxana türbələri, Şeyx Dursun türbəsi, Şıxməzid xanəgahı, qədim karvan yolları, körpülər, su sistemləri və tarixi qəbiristanlıqlar bir-birindən təcrid olunmuş abidələr deyil. Onlar əsrlər boyu Şirvanın siyasi, iqtisadi, dini və mədəni həyatını formalaşdırmış vahid tarixi coğrafiyanın tərkib hissələridir. Xüsusilə Şamaxı-Ağsu xətti Böyük İpək yolu, şəhər mədəniyyəti, sənətkarlıq, ticarət və sufi təriqətlərinin fəaliyyəti baxımından böyük əhəmiyyət daşıyır. Buradakı xanəgahlar səyyahların qəbul edildiyi, təhsil və maarifləndirmənin aparıldığı, iqtisadi münasibətlərin və mədəni əlaqələrin formalaşdığı mühüm ictimai institutlar kimi fəaliyyət göstəriblər. Bu baxımdan Şirvan xanəgahları və tarixi yolları gələcəkdə vahid mədəni marşrut və landşaft kimi təqdim oluna bilər.

Digər mühüm istiqamət Azərbaycanın Xəlvətilik və ümumən sufi irsidir. Avaxıl, Kələxana, Şıxməzid, Basqal və Şirvanın başqa sufi mərkəzləri Azərbaycanın orta əsrlər İslam dünyasının intellektual və mənəvi həyatındakı rolunu göstərir. Xəlvətilik Şirvanda formalaşaraq geniş coğrafiyaya yayılmış böyük sufi məktəblərindən biridir. Buna görə də bu irs gələcəkdə trans-milli serial nominasiya üçün ciddi elmi potensiala malikdir.

Azərbaycanın epiqrafik qəbirüstü abidələri də ayrıca diqqətə layiqdir. Şirvan, Qarabağ, Naxçıvan, Gəncə, Bakı və Azərbaycanın digər bölgələrindəki tarixi qəbiristanlıqlar təkcə dəfn yerləri deyil. Daş kitabələr, bədii ornamentlər, titul və nəsəb məlumatları, peşə və dini mənsubiyyət işarələri həmin dövrlərin sosial tarixini, dilini, incəsənətini və kollektiv yaddaşını əks etdirir. Bu abidələrin elmi inventarlaşdırılması və müqayisəli şəkildə öyrənilməsi gələcəkdə serial irs nominasiyasının əsasını yarada bilər. Basqalın ənənəvi şəhərsalma quruluşu, məhəllə sistemi, küçələri, bulaqları, kürəbəndləri, sənətkarlıq və yaşayış mədəniyyəti də ciddi potensiala malikdir. Yetərli elmi sənədləşdirmə və idarəetmə modeli hazırlanarsa, Basqal ayrıca mədəni landşaft kimi və ya Şirvanın tarixi-mədəni landşaftının tərkibində təqdim edilə bilər.

Nərgizava kimi çoxqatlı arxeoloji abidələrdə tədqiqatlar genişləndikcə Azərbaycanın UNESCO potensialına malik yeni nümunələri də üzə çıxa bilər. Lakin hər qədim və qiymətli abidə avtomatik olaraq UNESCO obyekti ola bilməz. Bunun üçün abidənin müstəsna ümumbəşəri dəyəri, autentikliyi, bütövlüyü, müqayisəli üstünlükləri, hüquqi mühafizəsi və idarəetmə mexanizmi elmi şəkildə sübuta yetirilməlidir. UNESCO da İlkin Siyahıların və nominasiya sənədlərinin alimlər, yerli idarəetmə qurumları, qeyri-hökumət təşkilatları və icmaların iştirakı ilə hazırlanmasını tövsiyə edir.

***- Azərbaycanın zəngin mədəni irsinin gələcək nəsillərə olduğu kimi çatdırılması üçün ən vacib məsələ nədir?***

- Ən vacib məsələ mədəni irsin sistemli, elmi və davamlı şəkildə sənədləşdirilməsi və idarə olunmasıdır. Qoruma abidənin divarını təmir etmək və ya üzərinə məlumat lövhəsi vurmaqdan ibarət deyil. Hər bir abidənin elmi pasportu, dəqiq ölçüləri, foto və video sənədləri, fotoqrammetrik və üçölçülü modeli, CİS xəritəsi, epiqrafik materialları, şifahi tarix məlumatları, kollektiv yaddaşı, konservasiya vəziyyəti və risk xəritəsi hazırlanmalıdır.

***- İrsin sənədləşdirilməsi nə üçün vacibdir?***

- İrsin sənədləşdirilməsi ona görə vacibdir ki, sənədləşdirilməmiş irsi nə düzgün tədqiq, nə də düzgün bərpa etmək mümkündür. Bəzən abidələr təbii aşınma nəticəsində deyil, elmi əsaslandırması olmayan təmir və "gözəlləşdirmə" işləri zamanı öz tarixi xüsusiyyətlərini itirir. Mənim fikrimcə, mədəni irs üçün ən böyük təhlükələrdən biri onun dağılması ilə yanaşı, yanlış bərpa nəticəsində tarixi dilini, materialını və autentikliyini itirməsidir. "Gələcək nəsillərə olduğu kimi çatdırmaq" ifadəsi abidəni tamamilə dəyişməz və donmuş vəziyyətdə saxlamağı tələb etmir. Məqsəd onun tarixi qatlarını, orijinal materiallarını, ətraf mühitini, funksiyasını və yaddaşını qorumaqdır. Bərpa zamanı abidəni yeni tikiliyə bənzətməkdənsə, onun keçdiyi tarixi yolu oxunaqlı saxlamaq lazımdır.

Digər vacib məsələ yerli icmaların qoruma prosesində iştirakıdır. Əksərən mədəni irsin yalnız dövlət qurumlarının və alimlərin işi olduğunu düşünürlər. Əslində abidənin ətrafında yaşayan insanlar onun ilk qoruyucularıdır. İcma öz irsinin dəyərini anlayırsa, ondan sosial və iqtisadi baxımdan faydalanırsa, onu qorumaqda daha çox maraqlı olur. Əks halda, irs insanlardan təcrid edilmiş muzey obyektinə çevrilir və tədricən öz sosial mahiyyətini itirir.

Biz gələcək nəsillərə abidələrlə bağlı hekayələri, yer adlarını, sənətkarlıq üsullarını, mərasimləri, şifahi yaddaşı və yaşayış mədəniyyətini də ötürməliyik. Maddi və qeyri-maddi irs bir-birindən ayrı qoruna bilməz. Məsələn, tarixi emalatxananı qoruyub orada işləyən ustanın biliklərini itirsək, irsin yalnız qabığını saxlamış olarıq. Buna görə də elmi-tədqiqat, peşəkar konservasiya, rəqəmsal sənədləşdirmə, hüquqi mühafizə, təhsil və icma iştirakçılığı vahid sistem şəklində fəaliyyət göstərməlidir. Mədəni irs keçmişdən qalan, lakin cəmiyyətin yaşatdığı yaddaşdır. İrsi qorumaq tarixi yaddaşı və nəticə etibarilə milli kimliyi qorumaq deməkdir.

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

*Hazırda UNESCO-nun Dünya İrsi üzrə İlkin Siyahısında Azərbaycandan 12 obyekt mövcuddur*

***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Vətən müharibəsinə açılan qapı

◂ əvvəli 3-cü səhifədə

Bu baxımdan, Tovuz hadisələrini Vətən müharibəsinə aparan yolun mühüm mərhələlərindən biri kimi qiymətləndirmək olar. Tovuz hadisələrini birbaşa Vətən müharibəsinə açılan qapı kimi də dəyərləndirmək mümkündür".

**■ Politoloq Natiq Miri deyir ki, Azərbaycan dövləti Tovuz döyüşlərinə qədər həm siyasi, həm də hüquqi baxımdan haqlı mövqeyini müxtəlif beynəlxalq platformalarda artıq sübut etmişdi.**

Belə ki, 1993-cü ildən etibarən BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə və sonrakı dövrdə müxtəlif beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu təsdiqləyirdi: "Tovuz döyüşləri bir sıra mühüm həqiqətləri ortaya çıxardı. İlk növbədə, aydın oldu ki, Tovuz döyüşləri Qarabağın azad olunması istiqamətində aparılacaq əməliyyatların bir növ hazırlıq mərhələsi və sınağı idi. İlk dəfə məhz Tovuz döyüşləri zamanı Azərbaycan pilotsuz uçuş aparatlarından və digər müasir texnologiyalardan istifadə edərək Ermənistanın müxtəlif hərbi mövqelərinə dəqiq zərbələr endirdi. Bu isə Azərbaycanın hərbi imkanlarını və texnoloji üstünlüyünü nümayiş etdirdi.

Tovuz hadisələri Ermənistanın adi sərhəd təxribatı kimi də qiymətləndirilə bilməzdi. Bu hadisələrin daha geniş geosiyasi səbəbləri və məqsədləri var idi. Ermənistanda təsir gücünü qoruyan revanşist qüvvələr və Qarabağ klanına bağlı dairələr Azərbaycanın strateji əhəmiyyət daşıyan Tovuz-Gəncə istiqamətində yerləşən enerji və nəqliyyat xətlərinə nəzarət imkanları əldə etməyə çalışırdılar.

*Bu həmrəylik mühiti, əslində, məhz İyul hadisələrindən sonra daha aydın şəkildə özünü göstərməyə başladı*



Bu plan regionda mövcud olan müəyyən geosiyasi maraqlarla da uzlaşırdı. Azərbaycan Ordusunun qətiyyətli müqaviməti və düşmənə vurduğu sarsıdıcı zərbələr həmin planların reallaşmasının mümkünsüz olduğunu göstərdi. Bununla da Azərbaycanın öz milli və geosiyasi maraqlarını qətiyyətlə müdafiə etmək əzmində olduğu bir daha nümayiş etdirildi. Məhz bundan sonra aydın oldu ki, Qarabağın azad olunması üçün əlverişli mərhələ yetişib. Bu istiqamətdə həm hərbi, həm də siyasi müstəvidə daha intensiv hazırlıqlara başlanıldı. Nəticədə, həmin hazırlıqların bəhrəsini 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində gördük. Azərbaycan Qarabağın azad olunması əməliyyatına başlayarkən artıq beynəlxalq müstəvidə də mühüm dəstəyə malik idi.

Qardaş Türkiyə və dost Pakistan hərbi-siyasi, mənəvi və psixoloji baxımdan Azərbaycanın yanında olduqlarını açıq şəkildə bəyan etdilər. Həmin hadisələr Azərbaycan cəmiyyətində milli həmrəyliyi daha da gücləndirdi, dövlət, ordu və xalq birliyini möhkəmləndirdi və sonrakı qələbənin siyasi-psixoloji əsaslarının formalaşmasına ciddi təsir göstərdi.

Bu həmrəylik mühiti, əslində, məhz İyul hadisələrindən sonra daha aydın şəkildə özünü göstərməyə başladı və uzun müddət ərzində davam edərək milli birliyin əsas sütunlarından birinə çevrildi". Politoloq bildirir ki, bu hadisələr cəmiyyətdə psixoloji baxımdan yeni bir oyanış yaratdı, insanları yenidən vahid məqsəd ətrafında birləşdirdi və Qarabağın azad olunması ideyasını daha da gücləndirdi: "Bu prosesə ciddi təsir göstərən amillərdən biri də general-mayor Polad Həşimovun şəhid olması idi. O, xalqın içindən çıxmış, əsgərləri ilə eyni şəraiti bölüşən, ön xətdə xidmət edən bir hərbçi idi. Polad Həşimov Azərbaycan cəmiyyətində sadəcə general deyil, həm də vətənpərvərlik, fədakarlıq və xidmət simvoluna çevrilmişdi. Onun ön xətdə, əsgərləri ilə birlikdə şəhid olması cəmiyyətdə dərin təsir yaratdı və milli həmrəyliyi daha da gücləndirdi. Bu hadisə insanları Qarabağın azad olunması ideyası ətrafında daha sıx birləşdirdi, həmin məqsədə doğru istiqamətləndirdi və milli birliyi daha da möhkəmləndirdi. Ona görə də demək olar ki, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsindən əvvəl Azərbaycan cəmiyyəti artıq psixoloji və mənəvi baxımdan bu prosesə hazır idi. İnsanlar Qarabağın azad olunmasını gözləyir, bunun nə vaxt baş verəcəyini düşünürdülər. Məhz buna görə də sentyabrın 27-də Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başlayanda xüsusi təşviqat və ya əlavə səfərbərlik çağırışlarına ehtiyac yaranmadı. Xalq artıq vahid məqsəd ətrafında birləşmişdi və ölkənin ərazi bütövlüyünün bərpasını dəstəkləyirdi. Tarix göstərdi ki, milli birlik və həmrəylik nümayiş etdirən xalqı məğlub etmək son dərəcə çətindir".

***Tahirə Qafarlı***

## XƏBƏRİNİZ OLSUN...



■ Baş nazir Əli Əsədov Qətər Dövlətinin ölkəmizdəki səfirliyində olub. Əli Əsədov Qətər Dövlətinin görkəmli dövlət xadimi, Ata Əmir Əlahəzrət Şeyx Həməd bin Xəlifə Al Taninin vəfatı ilə əlaqədar səfirlikdə açılan matəm kitabına ürək sözlərini yazıb, Qətərin Azərbaycandakı səfiri ilə söhbət edərək başsağlığı verib.

■ Azərbaycanda MyGov platformasında səsli xidmətlərin tətbiqi nəzərdə tutulur. Bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov deyib. Onun sözlərinə görə, MyGov platformasına "Voice-to-Text" və "Voice-to-Voice" texnologiyalarının inteqrasiyası planlaşdırılır.

■ Konqo Demokratik Respublikasında (KDR) "Ebola" virusuna laboratoriya üsulu ilə təsdiqlənmiş yoluxmaların sayı 2 011-ə yüksəlib. Bu barədə Rabitə və KİV İşləri Nazirliyinin gündəlik bülletenində məlumat verilib. Məlumata görə, son 24 saat ərzində daha 20 yoluxma halı qeydə alınıb.



■ 2026-cı ilin iyun ayında aylıq sosial müavinət və təqaüd alanların sayı 881 295 nəfər olub. Bu barədə Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib. Bildirilib ki, onların 476 224 nəfərini aylıq sosial müavinət, 405 071 nəfərini isə təqaüd alanlar təşkil edib.

■ ABŞ administrasiyasının Kubaya qarşı təzyiqi əvvəlki dövrlərlə müqayisədə daha da güclənib. Bunu ABŞ Dövlət Departamentinin Qərb Yarımkürəsi İşləri Bürosunun rəhbəri Maykl Kozak ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin dinləmələrində çıxışı zamanı deyib.

■ Latviyada dövlət mediasında rus dilinin qadağan edilməsi təklif olunur. Bu barədə Latviyanın LSM dövlət televiziyası məlumat yayıb. Latviyanın mədəniyyət naziri Nauris Puntulis hesab edir ki, ölkənin kütləvi informasiya vasitələrində rusdilli kontent tamamilə aradan qaldırılmalıdır.



■ Əfsanəvi fransız futbolçu Zinəddin Zidan Fransa milli komandasının növbəti baş məşqçisi olacaq. Bu barədə italiyalı jurnalist Fabritsio Romano X şəbəkəsində yazıb. Qeyd edək ki, Fransa millisinin baş məşqçisi Didye Deşam 2026-cı il dünya çempionatından sonra Fransa millisinin baş məşqçisi postunu tərk edəcəyini açıqlamışdı.

■ Rusiyanın Kamçatka yarımadası yaxınlığında 6,0 və 5,7 bal gücündə iki zəlzələ qeydə alınıb. Bu barədə Rusiya Elmlər Akademiyasının Vahid Geofizika Xidmətinin Kamçatka filialı məlumat yayıb. Bildirilib ki, yeraltı təkanlar iyulun 15-də altı dəqiqə fasilə ilə baş verib.

# İranın qisas strategiyası

***ABŞ və İran ikiaylıq müzakirələr masasında, artıq üçüncü dəfədir, təzyiq məqsədilə atəşkəsi pozaraq hərbi hücumlar həyata keçirir. Əvvəlki iki atəşkəs pozuntusunu ABŞ etsə də, üçüncünü İran başladı. Səbəb nədir? İki ölkə arasında güzəştə getmək istəməyən tərəflərin inadı nə zamanadək davam edəcək? Nəzərdən qaçırmayaq ki, bunun ağrılı bədəlini hakimiyyət kürsüsündə oturan inadkarlar deyil, milyonlarla sadə iranlı ödəyir. İranlı ekspert Maşallah Rəmzi Hafta.az-a müsahibəsində günahı hər iki tərəfdə axtarmağı məsləhət gördü:***

## Müsahib



**Maşallah Rəmzi,**
İranlı ekspert

- Üçüncü dəfədir, danışıqlar pozulur. Əvvəl iki dəfə ABŞ və İsrail müzakirələr gedən bir vaxtda qəfil atəşkəsi pozaraq İrana hücum etmişdilər, bu dəfə isə İran qabağa düşdü, körfəzdəki ticarət gəmilərinə atəş açdı. Əlbəttə, səbəb kimi bəzi iddialar vardı; məsələn: 14 maddəlik memorandumda deyilir ki, müzakirələrin davam edəcəyi müddətdə Hörmüz boğazında idarəçilik altmış gün ərzində İranda olacaq. O tərəfdən də İran Livan və Hizbullah məsələsinin paralel həllini tələb kimi qoyub. Bu müddətdə İsrail Livanda əməliyyatları davam etdirib, ABŞ isə çalışıb ki, körfəzdəki tankerləri Oman suları vasitəsilə mühasirədən çıxarsın. İran da bunları bəhanə edərək gəmilərə atəş açıb. Qarşı tərəf də cavabsız qalmayıb - İranın yüzlərlə məntəqəsini bombardman edib. Xüsusilə də İranın cənub məntəqələrindəki nizami hərbi qüvvələrin obyektləri vurulub. Üstəlik, Amerika elan etdi ki, İrana dəniz yolu ilə bütün giriş-çıxışı bağlayıb və bu da ölkədə vəziyyəti daha da ağırlaşdırıb.

***- İran Hörmüz boğazını, Amerika da İrana dəniz yolu ilə giriş-çıxışı yenidən bağladı və bəllidir ki, ziyanını müharibə ilə əlaqəsi olmayan ölkələr yaşayacaq. Necə bilisiniz, bu vəziyyət müharibəni dayandırmaq üçün İrana qalıcı və birmənalı üstünlük vəd edir?***

- Qeyd edək ki, İranın müzakirələri dayandırmasının bir səbəbi yeni dini lider Müctəba Xameneinin atasının intiqamını alacağını bildirməsi ilə bağlıdır. Yəni dövlət siyasəti qisas strategiyasına çevrilib, hansı ki, tarixən heç bir dövlət bu cür siyasət yürütmür. Vəziyyəti təsəvvür edin: sanki İran və ABŞ iki fərddir və bir-birindən qisas alırlar. Təəssüf ki, İrandakı ifratçı qüvvələr qisas məsələsini çox irəli aparıblar, bütün hərbi-strateji mərkəzləri nəzarətə götürüblər və istədiklərini edirlər. Belə deyim: İran və Amerika məqsədsiz və mənasız müharibə aparırlar və bu da dünyaya çox ciddi ziyanlar vurmaqdadır.

***- İran qarşılıq olaraq niyə ərəb ölkələrinə hücum edir? Bir halda ki, İran şəhərlərini İsrail bombalayır, niyə ərəb ölkələrinə atdığı dron və raketləri İsrailə yönləndirmir?***

- Müharibə dövründə İran Körfəz ölkələrinə hava hücumu edərkən Amerika bazalarını hədəf aldığını bildirirdi. Həqiqətən də, hazırda İranın güney qonşuları olan ərəb ölkələrinin ərazilərində 20-dən artıq Amerika bazası mövcuddur. Üstəlik, İordaniyada, Türkiyədə, İraqda, İsraildə hərbi bazalar var. İndi İran BƏƏ, Qətər, Bəhreyn, Küveyt, Səudiyyə Ərəbistanı, Oman və İordaniyaya hücum edir. Hamıya bəllidir ki, Amerikanın ən vacib və müasir təyyarələri İsrail ərazisində yerləşdirilib. İran isə oranı vurmaqda ehtiyatlanır. Bilir ki, İsraili vursa onlar da əllərindəki son texnologiyaya əsaslanan həmin təyyarə və raketlərlə İranı bombalayacaq. Bu halda isə İran heç bir təsirli tədbir görə bilməyəcək. Çünki iranın köhnə model təyyarələri Amerikanın supermodel hərbi aviasiyası qarşısında acizdir. Ona görədir ki, ABŞ-İsrail aviasiyası İran səmasında çox sərbəst manevrlər edir, istədikləri bölgəni asanlıqla vurub qayıdırlar. İranın qonşu ölkələrə hücumundan söz düşərkən qeyd edək ki, həmin körfəz ölkələrində Amerika, İngiltərə və hətta Fransanın bazaları var, amma ötənilki 12 günlük savaşdan sonra həmin bazalar boşaldılıb, orda nə təyyarə var, nə də əsgər. Amma İran bunu bilə-bilə boş bazaları vurur, səbəb də aydındır: xalqa sübut etsin ki, Amerika bazalarını vurmaqla düşmənə çox böyük itkilər yaşadır.

***- Dünyada elə bir dövlət eşitmədim ki, İranda olduğu kimi, prezident bir söz desin, ordu (SEPAH - red.) başqa söz. Naxçıvana dron hücumunu xatırlayaq: hökumət dedi onların xəbəri yoxdur hücumdan, generallar dedi, biz atmışıq. Kənardan baxanda İranda SEPAH ən ali, fövqəlsəlahiyyət orqan kimi görünür. Məncə, bu da İrana etimadı azaldır, çünki beynəlxalq diplomatik kanallar İranda kiminlə danışacağını bilinmirlər...***

- Həqiqətən də elədir. İran Prezidenti Məsud Pezeşkian ərazilərinə hava hücumu edilmiş bütün qonşu ölkələrdən açıq şəkildə üzr istədi. Bildirdi ki, məqsəd onların ərazilərinə deyil, Amerika bazalarına hücum etməkdir. Bu zaman SEPAH-ın rəhbərləri prezidenti bu sülhsevər addımına görə ciddi tənqid etdilər və hətta yalanladılar. SEPAH indi İranda həqiqətən də fövqəlsəlahiyyət sahibidir. Xameneinin dövründə ölkənin bütün siyasi, iqtisadi, ticarət - hər bir sahəsini nəzarətə alan SEPAH faktiki dövləti idarə edir. İndi bilirsiniz, bir çox ölkə artıq 150 min sabit, ümumilikdə isə 300 min silahlı qüvvəsi olan SEPAH-ı terrorçu təşkilat olaraq tanıyır və ya tanımağa hazırlaşır.

***- Amerika belə deyək, əlini tərpədən kimi, İran Küveyti, Bəhreyni, BƏƏ-ni, Qətəri vurur, Səudiyyəyə hücum edir. Məncə, burada daha fərqli səbəblər var...***

- O ölkələr lap əvvəldən gözləyirdilər ki, Amerika-İsrail hücumu nəticəsində İranda İslam rejimi devriləcək. Körfəz ölkələri hər zaman İslam Respublikasını və onun Yaxın Şərqdə yaratdığı silahlı təşkilatları özlərinə ciddi təhdid biliblər. Müharibə başlayarkən baxdılar ki, nəinki rejim devrilmir, hətta zərbələr onların öz ərazilərinə dəyməyə başlayıb, çalışdılar, siyasi mövqelərində İranla yaxınlıq sərgiləməyə. İran da bu addımdan yararlanmağa çalışır, çünki həmin ölkələr öz ərazilərindəki bazalardan hücuma icazə versələr, nəticədə İranın vəziyyəti daha pis olacaq.

Bundan əlavə, ötənilki 12 günlük müharibə zamanı İran başa düşdü ki, Amerika-İsrail ikiliyinin hücumlarının qarşısını almağa qadir deyil. Ona görə də mərhum Əli Xamenei bildirdi ki, İrana hücumlar davam edərsə, onlar da bölgə ölkələrini vuracaqlar. Bununla da regionda ara qarışacaq, İran vaxt qazanacaq və hərbi müstəvidə mövqeyini gücləndirəcək. Əslində bu, beynəlxalq diplomatik normaya uyğun olmasa da, müharibə vəziyyətində ölkələr özünümüdafiə məqsədilə hər nə desən edirlər.

***- Yəqin, İranda yaşayan insanlarla əlaqəniz var, onsuz da ağır olan ölkədaxili sosial vəziyyət indi necədir? Adamların dolanışığı necədir, dava-dərman, elektrik- filan problemi varmı...***

- Hələ müharibədən əvvəl İranda əhalinin 90 faizdən artığı sosial-iqtisadi vəziyyətdən narazı idi və istəyirdilər ki, hökumət dəyişsin, bəzi islahatlar keçirilsin və sair. ABŞ-İsrail ikiliyi hücuma başlayandan sonra xalq xarici müdaxiələyə qarşı səfərbər oldu. Hücumlar İran şəhərlərinə çox ciddi ziyan vurub. Paytaxt Tehranda zavod-fabriklərdən, hərbi məkanlardan əlavə 40 mindən artıq bina bombardman nəticəsində dağılıb. Təbriz kimi böyük şəhərdə çox geniş dağıntılar mövcuddur. Bu səbəbdən də vətəndaşlar hökumətlə müxalifətçiliyi dayandırıblar. İqtidar da müharibə vəziyyətindən istifadə edərək əhalini özünə bağlamağa çalışır. Son sorguya əsasən, 60 faizi artıq sosial çətnliklərə dözməyən əhalini "Ölsək, şəhid olacağıq" kimi dini-mənəvi vədlərlə sakitləşdirməyə çalışırlar; xüsusilə Tehran, Məşhəd kimi böyük şəhərlərdən İslam Respublikası tərəfdarlarını meydanlara çıxarıb dəstək aksiyası keçirməyə məcbur edirlər.

Onu da nəzərə alaq ki, onsuz da yaxşı olmayan sosial şərait bombardmanlar nəticəsində daha da ağırlaşıb, zavodlar dağıdıldığı üçün 2 milyondan artıq işçi işini itirib və bu da işsizlərin sayını artırıb. Statistikaya görə, İranda 24 milyon işləyən vətəndaş var və onun 25 faizi - 6 milyon nəfəri hazırda işsizdir. Müharibə başlayandan sonra işlərini itirən çox sayda insan ailələrini də götürüb vaxtilə yaşadıqları kəndlərə qayıdıb, az-çox əkin-biçinlə dolanırlar. Bildiyimə görə, iki gün əvvəllə müqayisədə çörəyin qiyməti 10 faiz bahalaşıb.

> “ *İranın müzakirələri dayandırmasının bir səbəbi yeni dini lider Müctəba Xameneinin atasının intiqamını alacağını bildirməsi ilə bağlıdır*

***- İranla ABŞ arasında birdəfəlik və möhkəm sülh yaranması üçün tərəflər nələri güzəştə getməlidirlər və bu, ən azı, bu il ərzində mümkün olacaqmı?***

- Məncə, tərəflərin nədəsə güzəştə getməsi o qədər ağlabatan görünmür. İndi bəzi vasitəçilər, o cümlədən, Pakistan, Türkiyə, Qətər, Misir və sair çalışırlar ki, bu ölkələri danışıqlar masasında hansısa tələblərindən imtina etməyə inandırsınlar və nəticədə regionda daimi sülh bərqərar olsun. Yenə deyirəm, indiki şəraitdə bu, mümkün görünmür. ABŞ-də həm Respublikaçılar, həm də Demokratlar yekdilliklə istəyirlər ki, İslam Respublikası süqut etsin. İsrail də İranda islam rejminin qalmasına qarşıdır. Amma İslam Respublikasının rəhbərləri öz postunda israrlıdırlar, hətta şəhərlər bombardmanla xarabazara çevrilsə, torpaqlar işğal edilsə də, İslam iqtidarı idarəetməni dəyişmək haqda fikirləşməyəcək. Bir məsələ var ki, Amerika İrana genişmiqyaslı müharibəyə başlamaq istəmir; yəni əvvəldən Xark adasını işğal etmək və Hörmüz boğazında nəzarəti tam ələ almaq barədə düşüncə vardı, amma realda bunları etməyə həvəsli görünmür. Bilir ki, Xarkı işğal etmək üçün adada piyada qüvvələr və ya Hörmüzü tam nəzarətdə saxlamaq üçün orada gəmilər yerləşdirməlidir. Bu da öz növbəsində, ciddi təhlükə yaradır, Amerika istəmir ki, bu addımı atmaqla İraq və ya Əfqanıstanda olduğu kimi bataqlığa düşsün. Xark adasında piyada qüvvələr çıxararsa və Hörmüz sularında döyüş gəmiləri yerləşdirərsə onlar SEPAH-ın hədəfinə çevriləcək və canlı qüvvə itkisi artacaq. Bütün bunları nəzərə alaraq sonda deyim ki, məncə, vəziyyət məhz güzəştə getmədikləri üçün irəlidə daha daha da ağırlaşacaq...



*✍ Vüsal Tağəbəyli*



# İqtisadiyyatımız yeni inkişaf mərhələsinə daxil olur

***Azərbaycan iqtisadiyyatının uzunmüddətli inkişaf perspektivləri qeyri-neft sektorunun gücləndirilməsi ilə birbaşa bağlıdır. Dünya Bankının Bakıda təqdim etdiyi "Azərbaycan üzrə Ölkə İqtisadi İcmalı - Yaz 2026" hesabatında vurğulanıb ki, ölkənin növbəti inkişaf mərhələsində iqtisadi artımın əsas hərəkətverici qüvvəsi məhz iqtisadiyyatın şaxələndirilməsi olacaq. Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Rolande Pryce bildirib ki, Azərbaycan son onillik ərzində güclü makroiqtisadi idarəetmə, möhkəm fiskal imkanlar və çevik dövlət siyasəti sayəsində qlobal iqtisadi sarsıntılara qarşı yüksək dayanıqlılıq nümayiş etdirib.***

## İqtisadiyyat

> “ *Ölkənin gələcək iqtisadi artımında beynəlxalq nəqliyyat dəhlizləri və logistika imkanları xüsusi əhəmiyyət daşıyacaq*

Onun sözlərinə görə, bu amillər ölkədə makroiqtisadi sabitliyin qorunmasına mühüm töhfə verib. Regional direktor qeyd edib ki, iqtisadiyyat artıq yeni inkişaf mərhələsinə daxil olur. Karbohidrogen hasilatının tədricən azalması fonunda davamlı iqtisadi artımın təmin edilməsi və yeni, keyfiyyətli iş yerlərinin yaradılması üçün qeyri-neft sektorunun inkişafı əsas prioritetə çevrilir. Dünya Bankının qiymətləndirməsinə görə, Azərbaycanda iqtisadi artım 2025-ci ildə 1,4 faizə qədər zəifləyib. Hesabatda bunun əsas səbəbləri kimi neft hasilatının azalması, eyni zamanda qeyri-neft sektorunda artım tempinin əvvəlki illərlə müqayisədə zəifləməsi göstərilir.

Rolande Pryce vurğulayıb ki, təqdim olunan iqtisadi icmalın əsas məqsədi Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi prosesini sürətləndirmək üçün siyasət istiqamətlərini müəyyənləşdirmək, dayanıqlı iqtisadi artımın yeni mənbələrini qiymətləndirmək və islahatlara dəstək verməkdir.

Ekspertlər də hesab edirlər ki, qeyri-neft sektorunun rəqabət qabiliyyətinin artırılması, özəl investisiyaların təşviqi, ixrac imkanlarının genişləndirilməsi və yüksək əlavə dəyər yaradan sahələrin inkişafı ölkənin uzunmüddətli iqtisadi dayanıqlığını möhkəmləndirəcək əsas amillər sırasındadır.

**■ Mövzu ilə bağlı iqtisadçı-ekspert Fuad İbrahimli bildirir ki, Azərbaycanın uzunmüddətli iqtisadi inkişafı üçün qeyri-neft sektorunda prioritetlərin düzgün müəyyənləşdirilməsi və dövlət investisiyalarının səmərəliliyinin artırılması əsas şərtlərdən biridir.**

Ekspert qeyd edir ki, ölkənin gələcək iqtisadi artımında beynəlxalq nəqliyyat dəhlizləri və logistika imkanları xüsusi əhəmiyyət daşıyacaq. Onun sözlərinə görə, Azərbaycanın əlverişli coğrafi mövqeyi tranzit potensialını gücləndirir və bu üstünlükdən maksimum istifadə olunması qeyri-neft sektorunun inkişafına ciddi töhfə verə bilər. F.İbrahimli deyir ki, indiyədək regionlarda yaradılmış bəzi sənaye müəssisələri gözlənilən iqtisadi nəticələri verməyib.

Onun sözlərinə görə, bu müəssisələrin fəaliyyəti hərtərəfli qiymətləndirilməli, rentabelli olmayan layihələrin səbəbləri araşdırılmalıdır. "Bu gün müxtəlif regionlarda fəaliyyət göstərən müəssisələrin iqtisadi səmərəliliyinə baxdıqda görürük ki, onların bir qismi gözlənilən nəticəni vermir. Halbuki həmin müəssisələr vaxtilə region iqtisadiyyatının aparıcı istehsal mərkəzləri kimi nəzərdə tutulmuşdu. Akkumulyator, velosiped, şüşə və digər istehsal müəssisələrini misal göstərmək olar. Əlbəttə, uğurlu fəaliyyət göstərən müəssisələr də var. Rentabelli olmayan layihələrin texniki-iqtisadi əsaslandırmasını hazırlayan şəxslər də məsuliyyət daşımalıdır. Dövlət vəsaiti hesabına yaradılan müəssisələrin uzunmüddətli fəaliyyət göstərə bilməsi əvvəlcədən düzgün hesablanmalı idi", - deyə iqtisadçı vurğulayır.

Ekspert hesab edir ki, fəaliyyətində problemlər olan müəssisələri tamamilə fəaliyyətsiz saxlamaq əvəzinə onların istehsal istiqaməti dəyişdirilməli, müasir texnologiyalar tətbiq edilməli və bazar tələblərinə uyğun modernizasiya aparılmalıdır. Onun fikrincə, bu yanaşma həm dövlət investisiyalarının səmərəliliyini artırar, həm də yeni iş yerlərinin qorunmasına imkan verər.

F.İbrahimlinin sözlərinə görə, hazırkı mərhələdə qeyri-neft sektorunun əsas inkişaf istiqamətlərindən biri Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində rolunun gücləndirilməsidir. O qeyd edir ki, Şərq-Qərb və Şimal-Cənub marşrutları üzrə artan yükdaşımalar ölkənin logistika mərkəzinə çevrilməsi üçün real imkan yaradır. Bu isə yalnız tranzit gəlirlərini deyil, həm də anbar təsərrüfatı, logistika xidmətləri, sənaye zonaları və digər infrastruktur sahələrinin inkişafını stimullaşdıracaq.

İqtisadçı alternativ enerji mənbələrini də qeyri-neft sektorunun perspektivli istiqamətlərindən biri hesab edir. Onun sözlərinə görə, günəş və külək enerjisi layihələrinin genişləndirilməsi həm daxili enerji təminatını gücləndirəcək, həm də gələcəkdə ixrac potensialının artmasına şərait yaradacaq. Bu sahəyə yatırılan investisiyalar yeni iqtisadi dəyər formalaşdırmaqla yanaşı, ölkənin enerji keçidini də sürətləndirəcək. F.İbrahimli kənd təsərrüfatını da strateji sahələrdən biri kimi qiymətləndirir. O hesab edir ki, dövlət tərəfindən bu istiqamətdə müəyyən edilmiş proqram və hədəflər tam icra olunarsa, aqrar sektor qeyri-neft iqtisadiyyatının əsas inkişaf lokomotivlərindən birinə çevrilə bilər. "Əslində kənd təsərrüfatı çoxdan qeyri-neft sektorunun aparıcı qüvvəsi olmalı idi. Bu sahədə böyük potensial mövcuddur. Son müşavirələrdə açıqlanan planlar tam həyata keçirilərsə, aqrar sektor həm ixracın artmasına, həm də regionlarda məşğulluğun genişlənməsinə ciddi töhfə verəcək", - deyə iqtisadçı əlavə edir.

*✍ Sevinc*

# Kamera quraşdırarkən diqqətli olun!

***Azərbaycanda çoxmənzilli yaşayış binalarında müşahidə kameralarının quraşdırılması ilə bağlı uzun müddətdir, davam edən hüquqi mübahisələrə Ali Məhkəmə mühüm qərarı ilə nöqtə qoyub. Məhkəmənin formalaşdırdığı hüquqi mövqeyə əsasən, vətəndaş öz mənzilinin təhlükəsizliyini təmin etmək üçün kamera quraşdıra bilər, lakin bu, qonşuların şəxsi həyatına müdaxilə hesabına baş verməməlidir. Ali Məhkəmənin baxdığı işdə eyni girişdə və eyni mərtəbədə yaşayan iki qonşu arasında yaranan mübahisə araşdırılıb.***



## Cəmiyyət



**Ramil Osmanlı,**
əmlak məsələləri üzrə ekspert, hüquqşünas

Mübahisənin səbəbi sakinlərdən birinin ümumi dəhlizdə və mənzilinin giriş hissəsində müşahidə kameraları quraşdırması olub. Digər qonşu isə bunun şəxsi həyatının toxunulmazlığı hüququnu pozduğunu iddia edərək məhkəməyə müraciət edib. Məhkəmə qərarında vurğulayıb ki, hər bir şəxs öz mənzilinin və əmlakının təhlükəsizliyini təmin etmək məqsədilə müşahidə kamerası quraşdıra bilər. Lakin bu hüquq qeyri-məhdud deyil və digər şəxslərin konstitusion hüquqlarını pozmamalıdır. Ali Məhkəmə qeyd edib ki, şəxsi həyat yalnız mənzilin daxilində baş verən hadisələrdən ibarət deyil. Şəxsin evə nə vaxt gəlib-getməsi, onu kimlərin ziyarət etməsi, gündəlik hərəkətləri və görüntüsünün davamlı şəkildə qeydə alınması da şəxsi həyata aid məlumat hesab olunur. Bu səbəbdən ümumi dəhlizi və digər mənzillərin girişlərini daim izləyən kameralar şəxsi həyata müdaxilə kimi qiymətləndirilə bilər.

Qərara əsasən, çoxmənzilli yaşayış binasının ümumi dəhlizini və digər mənzillərin giriş hissələrini əhatə edən müşahidə kamerası yalnız həmin dəhlizdən istifadə edən qonşuların razılığı olduqda quraşdırıla bilər. Əks halda, kamera yalnız onu quraşdıran şəxsin mənzilinin giriş hissəsini əhatə etməli, qonşuların hərəkətlərini və giriş-çıxışını qeydə almamalıdır. Ali Məhkəmə konkret iş üzrə ümumi dəhlizi və qonşu mənzilləri əhatə edən kameranın sökülməsinə, digər kameranın isə yalnız mənzilin giriş hissəsini göstərəcək şəkildə tənzimlənməsinə qərar verib. Qərarın diqqətçəkən məqamlarından biri də mənəvi zərərlə bağlı hüquqi yanaşmadır. Məhkəmə hesab edib ki, insanın uzun müddət öz iradəsi xaricində izlənilməsi onda daimi nəzarət altında olması hissi yarada və psixoloji narahatlığa səbəb ola bilər. Belə hallarda şəxsi həyata qanunsuz müdaxilə sübuta yetirilərsə, mənəvi zərərin ayrıca sübut olunmasına ehtiyac yoxdur. Hüquq pozuntusunun özü mənəvi zərərin mövcudluğu üçün əsas hesab edilir. Mütəxəssislər hesab edirlər ki, bu qərar gələcəkdə oxşar mübahisələrin həllində mühüm hüquqi istinad olacaq. Eyni zamanda, təhlükəsizlik məqsədilə kamera quraşdırmaq istəyən vətəndaşlara da aydın mesaj verir. Təhlükəsizlik hüququ qonşunun şəxsi həyatının toxunulmazlığı hesabına təmin edilə bilməz. Ali Məhkəmənin formalaşdırdığı bu hüquqi mövqe həm şəxsi həyatın qorunması, həm də mülkiyyət hüququ arasında balansın təmin edilməsi baxımından əhəmiyyətli presedent kimi qiymətləndirilir.

**■ Mövzu ilə bağlı əmlak məsələləri üzrə ekspert, hüquqşünas Ramil Osmanlı deyir ki, qəbul edilən hüquqi mövqe gözlənilən idi və indiyədək məhkəmələrdə baxılan çoxsaylı oxşar mübahisələrin məntiqi nəticəsidir.**

Onun sözlərinə görə, fərdi yaşayış evləri ilə çoxmənzilli binalarda hüquqi vəziyyət eyni deyil. “Çoxmənzilli yaşayış binasında vətəndaş mənzilinə kamera quraşdırarkən qonşuların azadlığını və sərbəst yaşamaq hüququnu məhdudlaşdıra bilməz. Təcrübədə rast gəlinir ki, bir blokda bir neçə sakin ümumi istifadədə olan dəhlizə kamera quraşdırır. Məqsəd öz mənzilinin təhlükəsizliyini təmin etmək olsa da, nəticədə həmin kameralar digər qonşuların qapısını, onların gün ərzində evə giriş-çıxışını və kimlərin gəlib-getdiyini də qeydə alır. Bu isə insan hüquq və azadlıqları baxımından yolverilməzdir”, - deyə ekspert bildirir. R. Osmanlı qeyd edir ki, şəxsi həyatın toxunulmazlığı hüququ qanunvericilikdə geniş şəkildə qorunur və bu prinsip yalnız məişət münasibətlərinə deyil, cinayət-prosessual qanunvericiliyə də şamil olunur.

> *“Qəbul edilən hüquqi mövqe gözlənilən idi və indiyədək məhkəmələrdə baxılan çoxsaylı oxşar mübahisələrin məntiqi nəticəsidir*

“Hətta cinayət törətmiş şəxsin belə razılığı olmadan onun foto və ya videogörüntüsünün yayılması qanun pozuntusu hesab edilir və hüquqi məsuliyyət yaradır. Belə olan halda adi vətəndaşın gündəlik həyatının onun razılığı olmadan davamlı şəkildə müşahidə olunması və qeydə alınması da qəbuledilməzdir”, - ekspert vurğulayır. Onun fikrincə, Ali Məhkəmənin müəyyən etdiyi hüquqi norma gələcəkdə bu kateqoriyadan olan məhkəmə çəkişmələrinin sayını əhəmiyyətli dərəcədə azaldacaq.

“Artıq bu sahədə hüquqi standart formalaşıb. Gələcəkdə həm fiziki, həm də hüquqi şəxslər kamera quraşdırarkən bu qaydalara əməl etməli olacaqlar. Kamera yalnız onu quraşdıran şəxsin mənzilinin giriş hissəsini əhatə etməli, digər mənzilləri və ya ümumi dəhlizin geniş hissəsini müşahidə etməməlidir. Bu qaydalar zamanla vətəndaşlar üçün ümumi davranış normasına çevriləcək”, - deyə o bildirir.

Ekspert əlavə edib ki, müəyyən edilmiş tələblərə əməl olunmadıqda zərərçəkmiş şəxslərin hüquq-mühafizə orqanlarına müraciət etmək hüququ var.

“Belə hallarda qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq hüquqi məsuliyyət, o cümlədən inzibati cərimələr tətbiq oluna bilər. Cinayət məsuliyyəti isə o zaman yaranır ki, şəxs qonşusunun şəxsi və ailə həyatını əks etdirən videogörüntüləri onun razılığı olmadan yayır və bununla şəxsi həyatın toxunulmazlığını kobud şəkildə pozur. Bu cür hallara artıq cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun hüquqi qiymət verilir”, - Ramil Osmanlı qeyd edir.

*✍ Sevinc*

***Mağaza şəbəkələri tərəfindən satılan hədiyyə kartlarında etibarlılıq müddətinin başa çatması ilə balansdakı vəsaitin silinməsini nəzərdə tutan şərtlər etibarsız hesab oluna bilər. Bunu Trend-ə açıqlamasında Bakı Apellyasiya Məhkəməsinin hakimi Fərrux Qasımov deyib.***




# Hədiyyə kartlarının müddəti bitirsə, pul silinə bilərmi?

Onun sözlərinə görə, hədiyyə kartı müstəqil əmtəə deyil və kartın alınması zamanı istehlakçı əslində gələcəkdə mağazadan məhsul əldə etmək məqsədilə əvvəlcədən pul vəsaiti - avans ödəyir. “Hədiyyə kartı yalnız həmin ödənişi təsdiq edən vasitədir və tərəflər arasında şifahi alqı-satqı müqaviləsinin mövcudluğunu göstərir. Kartların üzərində yer alan “yalnız etibarlılıq müddəti ərzində istifadə edilə bilər”, “müddət bitdikdə kart yenilənmir və balansdakı məbləğ silinir” kimi müddəalar müqavilənin standart şərtləri hesab edilməlidir. Çünki bu şərtlər sahibkar tərəfindən əvvəlcədən hazırlanır və istehlakçının onların məzmununa təsir etmək imkanı olmur”, - deyə hakim bildirib.

F.Qasımov qeyd edib ki, müqavilə azadlığı prinsipi tərəflərə qanunvericiliyə zidd olmayan şərtlər müəyyən etmək imkanı versə də, bu prinsip standart şərtli müqavilələrdə istehlakçının hüquqlarını məhdudlaşdıran və sahibkara birtərəfli üstünlük yaradan müddəaların tətbiqinə əsas vermir. “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 420-ci maddəsinə əsasən, təklif edən tərəfə əsassız olaraq öz öhdəliyinin icrasından imtina etmək imkanı verən, yaxud istehlakçını qanunla nəzərdə tutulmuş hüquqlardan məhrum edən standart şərtlər etibarsız sayılır”, - deyə o vurğulayıb. Hakim bildirib ki, kartın etibarlılıq müddətinin başa çatmasını əsas gətirərək həm məhsulun təqdim edilməsindən, həm də əvvəlcədən ödənilmiş avansın qaytarılmasından imtina edilməsi Mülki Məcəllənin tələblərinə uyğun deyil. “Belə şərtlər satıcıya öhdəliyini birtərəfli qaydada icra etməmək imkanı yaradır və istehlakçının zərərin əvəzinin ödənilməsini tələb etmək hüququnu faktiki olaraq aradan qaldırır”, - deyə o əlavə edib. F.Qasımovun sözlərinə görə, bu cür müddəalar həm Mülki Məcəllənin 420-ci maddəsinə, həm də mülki hüququn əsas prinsiplərindən olan vicdanlılıq prinsipinə ziddir.

“Çünki hədiyyə kartı özü iqtisadi dəyər daşımır, yalnız əvvəlcədən ödənilmiş vəsaiti təsdiqləyir. Müddətin bitməsi ilə həmin vəsaitin silinməsi satıcının heç bir məhsul təqdim etmədən avans məbləğini özündə saxlamasına səbəb olur ki, bu da hüquqi əsas olmadan varlanma ilə nəticələnə bilər”, - deyə hakim bildirib. O qeyd edib ki, hədiyyə kartlarında etibarlılıq müddəti başa çatdıqda balansın silinməsini nəzərdə tutan standart şərtlər etibarsız hesab edilməli, istehlakçının əvvəlcədən ödədiyi vəsait hesabına məhsul əldə etmək və ya qanunvericiliyin nəzərdə tutduğu digər hüquqlardan istifadə etmək imkanı qorunmalıdır.

# Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin səlahiyyətləri genişləndirilir

**Prezident İlham Əliyev “Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb. Sənədin mətni Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc olunub.**

Fərmana əsasən, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin səlahiyyətləri genişləndirilir. İdarəyə “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun 6.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla, müvafiq ərazidə dayanacaq məntəqələri istisna olmaqla, avtomobil nəqliyyatının infrastruktur obyektlərinin yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına dair rəy vermək, müvafiq ərazidə müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələri yerlərinin müəyyən edilməsini, onların quraşdırılmasını, idarə olunmasını və saxlanılmasını təmin etmək səlahiyyətləri verilib.

# Elektrik enerjisi ixracından nə qədənr vəsait qazanmışıq?




**Cari ilin yanvar-iyun aylarında Azərbaycanın elektrik enerjisi ixracından əldə etdiyi gəlir məlum olub. Hesabat dövründə Azərbaycan 271,2 milyon kilovat-saat elektrik enerjisi ixrac edib. Elektrik enerjisinin ixracından əldə olunan gəlir 14,368 milyon ABŞ dolları təşkil edib.**

Qurumun məlumatına görə, ötən ilin eyni dövrü ilə müqayisədə elektrik enerjisinin ixracı həcm ifadəsində 408,6 milyon kilovat-saat (60,1 faiz), dəyər ifadəsində isə 24,189 milyon ABŞ dolları (62,7 faiz) azalıb. Hesabat dövründə elektrik enerjisi ixracının qeyri-neft sektoru ixracındakı payı 0,76 faiz təşkil edib. Qeyd edək ki, Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-iyun aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 24,661 milyard ABŞ dolları təşkil edib. Hesablamalara görə, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 261 milyon ABŞ dolları və ya 1,1 faiz çoxdur. Ümumi xarici ticarət dövriyyəsinin 16,32 milyard ABŞ dolları ixracın, 8,341 milyard ABŞ dolları isə idxalın payına düşüb.

Qurumun məlumatına görə, cari ilin yanvar-iyun aylarında ixracın həcmi 3,442 milyard ABŞ dolları (26,7 faiz) artdığı halda, idxalın həcmi 3,181 milyard ABŞ dolları (27,6 faiz) azalıb.

Nəticədə xarici ticarətdə 7,979 milyard ABŞ dolları həcmində müsbət saldo formalaşıb. Trend-in hesablamalarına görə, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 5,9 dəfə və ya 6,623 milyard ABŞ dolları çoxdur.



**■ Hazırda sistem əhəmiyyətli banklarda əməkdaşların 30%-dək hissəsi rəqəmsal sahədə fəaliyyət göstərir. Bunu Azərbaycan Mərkəzi Bankı sədrinin müavini Vüsal Xəlilov deyib.**

Onun sözlərinə görə, maliyyə sektoru rəqəmsal transformasiyaya üç istiqamətdə - yeni texnologiyaların tətbiqi, rəqəmsal xidmətlərin genişləndirilməsi və insan kapitalının inkişafı ilə töhfə verir. Mərkəzi Bank rəsmisi qeyd edib ki, son illərdə rəqəmsal bankçılıqdan istifadə də əhəmiyyətli dərəcədə artıb.

Belə ki, 2018-ci ildə köçürmələrin cəmi 20%-i elektron bankçılıq vasitəsilə həyata keçirilirdisə, hazırda bu göstərici 82%-ə yüksəlib. Kartlarla aparılan nağdsız ödənişlərin ümumi kart əməliyyatlarındakı payı isə 17,8%-dən 67,7%-ə çatıb.



**■ Kənd təsərrüfatında tətbiq olunan süni intellekt həlləri əkin sahələrinin avtomatik monitorinqini aparmağa və yanlış subsidiya hallarını aşkar etməyə imkan verir. Bunu kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova deyib.**

Onun sözlərinə görə, hazırda nazirlikdə 33 süni intellekt həlli hazırlanır, onlardan bəziləri artıq istifadəyə verilib. Nazir müavini bildirib ki, peyk görüntüləri və süni intellekt əsasında əkin sahələrinin avtomatik monitorinqi həyata keçirilir. Bu yanaşma yanlış subsidiya hallarının aşkarlanmasına, dövlət vəsaitindən daha səmərəli istifadəyə və subsidiya prosesinin sürətlənməsinə imkan yaradır.



**■ Uşaqların rəqəmsal mühitdə qorunması ilə bağlı hazırlanacaq mexanizmlərin məqsədi onların sosial şəbəkələrə girişini qadağan etmək deyil. Bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov deyib.**

Onun sözlərinə görə, kibertəhlükəsizlik sahəsində əsas məsələlərdən biri uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin edilməsidir. Nazir müavini bildirib ki, bu yanaşmanın sosial şəbəkələrə girişin qadağan olunması kimi təqdim edilməsi düzgün deyil. R.Həsənov qeyd edib ki, nəzərdə tutulan mexanizmlər uşaqların rəqəmsal mühitdə qorunmasına xidmət edir. Bu çərçivədə müəyyən yaş qrupları üçün məhdudiyyətlər və valideyn nəzarəti mexanizmlərinin tətbiqi nəzərdən keçirilir.




**■ Bakı qlobal neft sənayesinin beşiyi olmaqla yanaşı, dünya neft tarixində bir çox ilklərə imza atmış şəhərdir. Bu barədə OPEC-in Baş katibi Heysəm əl-Qays Bakıda keçirilən “OPEC+” Əməkdaşlıq Xartiyasının (Charter of Cooperation - CoC) Texniki Komitəsinin ilk iclası zamanı bildirib.**

Onun sözlərinə görə, Azərbaycan uzun illərdir neft sənayesinin öncüllərindən biridir. “Keçmişdə bu torpaqda baş vermiş sənaye yenilikləri kimi, bugünkü toplantının da neft istehsalçıları, istehlakçıları, investorlar və bütövlükdə qlobal iqtisadiyyat üçün mühüm faydalar verəcəyinə inanırıq”, - Heysəm əl-Qays qeyd edib.



**■ Müasir dövrdə enerji sahəsində təsir yalnız hasilat həcmi ilə ölçülmür. Bu barədə energetika naziri Pərviz Şahbazov bildirib.**

Onun sözlərinə görə, bu təsir təhlükəsiz və şaxələndirilmiş tədarük marşrutları, etibarlı tərəfdaşlıqlar və fasiləsiz enerji təchizatı ilə müəyyən olunur. ”Məhz buna görə də Azərbaycanın strateji əhəmiyyəti istehsal etdiyi enerji həcmi ilə deyil, regionlar və bazarlar arasında etibarlı bağlantı yaratmaq qabiliyyəti, tərəfdaşlarının enerji təhlükəsizliyinə verdiyi töhfə və etibarlı tərəfdaş kimi qazandığı inamla ölçülür. Bu etimad Azərbaycanın OPEC+ çərçivəsində fəal iştirakı ilə daha da möhkəmlənir”, - nazir qeyd edib.



**■ Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sektorunda çalışanların sayının 40 min nəfərə çatdırılması hədəflənir. Bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov deyib.**

Onun sözlərinə görə, hazırda İKT sektorunda təxminən 25 min nəfər çalışır və 2026-2028-ci illər üzrə Fəaliyyət Planı çərçivəsində bu göstəricinin 40 min nəfərə çatdırılması nəzərdə tutulur. R.Həsənov bildirib ki, məqsəd yalnız məşğulluğun artırılması deyil, eyni zamanda süni intellekt, data analitikası və digər yüksək əlavə dəyər yaradan sahələr üzrə ixtisaslı mütəxəssislərin sayının artırılmasıdır. Nazir müavini qeyd edib ki, bu istiqamət rəqəmsal iqtisadiyyatın inkişafı üzrə əsas nəticə göstəricilərindən biri kimi müəyyən edilib.

# Bakı yenə liderdir

***Son rəsmi statistika göstərir ki, ölkədə həm muzdla çalışanların sayı, həm də orta aylıq əməkhaqqı artıb. Xüsusilə özəl sektorda məşğulluğun yüksəlməsi iqtisadiyyatın strukturunda baş verən dəyişikliklərin əmək bazarına da təsir etdiyini göstərir. Bununla yanaşı, açıqlanan rəqəmlər bir sıra suallar doğurur: özəl sektorda məşğulluğun artmasının əsas səbəbləri nələrdir, dövlət sektorunda işçi sayının azalması nə ilə bağlıdır və maaş artımı insanların real gəlirlərinə necə təsir edir?***

## Sosial



Dövlət Statistika Komitəsinin məlumatına görə, 2026-cı il iyunun 1-nə Azərbaycanda muzdla çalışan işçilərin sayı 1 milyon 790,6 min nəfər təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Statistika göstərir ki, məşğulluqdakı artım əsasən özəl sektorun hesabına baş verib. Dövlət sektorunda çalışanların sayı 1,5 faiz azalaraq 859,9 min nəfərə düşdüyü halda, qeyri-dövlət sektorunda çalışanların sayı 3,85 faiz artaraq 930,7 min nəfərə çatıb. Beləliklə, ölkədə muzdla çalışanların böyük hissəsi artıq özəl sektorda fəaliyyət göstərir. Bu göstəricilər son illərdə həyata keçirilən iqtisadi islahatların nəticəsi kimi qiymətləndirilə bilər.

Sahibkarlığın inkişafına dəstək, yeni investisiyaların cəlb olunması və qeyri-neft sektorunun genişlənməsi yeni iş yerlərinin daha çox özəl sektorda yaradılmasına şərait yaradır. Dövlət sektorunda çalışanların sayının azalması isə mütləq şəkildə iş yerlərinin ixtisarı demək deyil. Bu, dövlət qurumlarında aparılan optimallaşdırma işləri, rəqəmsallaşma, bəzi xidmətlərin özəl şirkətlərə həvalə edilməsi, eləcə də yeni iş yerlərinin əsasən özəl sektorda açılması ilə bağlı ola bilər.

### Ən çox işçi hansı sahələrdə çalışır?

**Rəsmi statistikaya əsasən, muzdla çalışanların 18,6 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində çalışır. Bu sahə məşğulluqda ilk yeri tutur. İkinci yerdə 18,1 faizlə təhsil sektoru qərarlaşıb. Təhsil sahəsində çalışanların yüksək payı dövlət sektorunun əmək bazarında hələ də mühüm yer tutduğunu göstərir.**

Sənaye sektoru 13,8 faizlə üçüncü yerdədir. Bundan başqa, muzdlu işçilərin 8,6 faizi səhiyyə və sosial xidmətlər, 6,6 faizi tikinti, 6,1 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 4 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi maliyyə və sığorta, 2,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində çalışır. İşçilərin 15,1 faizi isə iqtisadiyyatın digər sahələrinin payına düşür. Bu bölgü göstərir ki, Azərbaycan əmək bazarında xidmət sektoru hələ də üstünlük təşkil edir. Bununla yanaşı, sənaye və tikinti sahələri də məşğulluğun formalaşmasında mühüm rol oynayır.

### Bakı yenə liderdir

**Əməkhaqqı göstəricilərində də artım qeydə alınıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-may aylarında ölkədə muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin eyni dövrü ilə müqayisədə 7,3 faiz artaraq 1 175 manata çatıb. Yanvar-aprel aylarında isə bu göstərici 1 172,1 manat olub.**

Beləliklə, may ayında orta aylıq əməkhaqqı əvvəlki ayla müqayisədə 2,9 manat artıb. Bu artım əmək bazarında müsbət tendensiyadan xəbər versə də, ekspertlər bildirirlər ki, maaşların real təsirini qiymətləndirərkən inflyasiya da nəzərə alınmalıdır. Əgər əməkhaqqındakı artım qiymət artımını üstələyirsə, bu zaman əhalinin alıcılıq qabiliyyəti yüksəlir. Əks halda isə nominal maaş artsa da, vətəndaş gündəlik xərclərində ciddi fərq hiss etməyə bilər.

Paytaxtda orta aylıq əməkhaqqı ölkə üzrə orta göstəricidən xeyli yüksək olaraq qalır. Bakı Şəhər Statistika İdarəsinin məlumatına görə, bu ilin yanvar-aprel aylarında paytaxtda muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 1 385,9 manat təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 7,8 faiz çoxdur. Beləliklə, Bakıda orta əməkhaqqı ölkə üzrə orta göstəricidən təxminən 214 manat yüksəkdir. Bu fərq paytaxtda iri şirkətlərin, maliyyə sektorunun, beynəlxalq təşkilatların və yüksək gəlirli xidmət sahələrinin daha çox cəmləşməsi ilə izah olunur.

### Qarşıdakı dövr üçün əsas çağırışlar

**Açıqlanan statistik göstəricilər göstərir ki, Azərbaycanda əmək bazarında müsbət tendensiya davam edir.** Muzdla çalışanların sayının artması, xüsusilə özəl sektorda məşğulluğun genişlənməsi və orta aylıq əməkhaqqının yüksəlməsi iqtisadi fəallığın artdığını göstərən əsas indikatorlardan hesab olunur.

Bununla belə, iqtisadi inkişafın davamlı olması üçün təkcə məşğulluğun artması kifayət deyil. Əsas məsələ yaradılan iş yerlərinin keyfiyyəti, əmək məhsuldarlığı və həmin iş yerlərinin vətəndaşların gəlirlərinə real təsiridir. Mütəxəssislər hesab edirlər ki, yüksək ixtisas tələb edən və yüksək əlavə dəyər yaradan sahələrin inkişafı əməkhaqlarının daha sürətli artmasına və iqtisadiyyatın dayanıqlığının möhkəmlənməsinə imkan yarada bilər.

> “
>
> *Paytaxtda orta aylıq əməkhaqqı ölkə üzrə orta göstəricidən xeyli yüksək olaraq qalır*
>
> *Azərbaycanda əmək bazarında yeni tendensiya müşahidə olunur*

Digər mühüm məsələ isə regionlarla Bakı arasında əməkhaqqı fərqinin azaldılmasıdır. Paytaxtda əməkhaqqının ölkə üzrə orta göstəricidən xeyli yüksək olması regionlarda daha çox investisiyanın cəlb edilməsini, yeni sənaye və istehsal müəssisələrinin yaradılmasını, eləcə də yüksək maaşlı iş yerlərinin açılmasını zəruri edir. Bu istiqamətdə atılacaq addımlar daxili miqrasiyanın azalmasına, regionların iqtisadi potensialının güclənməsinə və balanslı inkişafın təmin olunmasına da töhfə verə bilər.

Eyni zamanda, əməkhaqqının nominal deyil, real artımı da diqqətdə saxlanılmalıdır. Maaşların yüksəlməsi yalnız inflyasiyanı üstələdiyi halda əhalinin alıcılıq qabiliyyətinin və həyat səviyyəsinin yaxşılaşmasına səbəb olur. Bu baxımdan qiymət sabitliyinin qorunması və gəlirlərin davamlı artımı paralel şəkildə təmin edilməlidir.

Ümumilikdə, son statistika onu göstərir ki, Azərbaycanda əmək bazarında müsbət dinamika qorunur və özəl sektor iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən birinə çevrilməkdədir. Qarşıdakı dövrdə qeyri-neft sektorunun inkişafı, investisiya mühitinin yaxşılaşdırılması, rəqabətqabiliyyətli biznes mühitinin formalaşdırılması və insan kapitalına yatırımların artırılması məşğulluğun daha da genişlənməsinə, əməkhaqlarının yüksəlməsinə və ölkənin sosial-iqtisadi inkişafının sürətlənməsinə mühüm töhfə verə bilər.

✍ ***Sevinc***

# Xanımların xarici ər seçimi

***2026-cı ilin ilk altı ayında Azərbaycanda vətəndaşlarla əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər arasında bağlanan nikahların sayında azalma qeydə alınıb. Ədliyyə Nazirliyinin məlumatına görə, yanvar-iyun aylarında bu kateqoriya üzrə ümumilikdə 780 nikah rəsmiləşdirilib. Nikah bağlayan Azərbaycan vətəndaşlarından 369-u qadın, 411-i isə kişi olub.***

## Cəmiyyət



Müqayisə üçün qeyd edək ki, ötən ilin eyni dövründə 1 080 belə nikah qeydə alınmışdı. Həmin nikahlarda Azərbaycan vətəndaşlarından 480-i qadın, 600-ü isə kişi idi. Beləliklə, bir il ərzində əcnəbilərlə bağlanan nikahların sayı 300 vahid və ya təxminən 28 faiz azalıb. Maraqlıdır, bu azalma hansı amillərlə bağlıdır? Miqrasiya proseslərinin zəifləməsi, xaricdə yaşayan azərbaycanlıların sayındakı dəyişikliklər, yoxsa iqtisadi və sosial amillər bu statistikaya təsir göstərib?

Mövzu ilə bağlı sosioloqlar hesab edirlər ki, son illərdə beynəlxalq miqrasiya axınlarındakı dəyişikliklər, pandemiyadan sonrakı dövrdə müxtəlif ölkələrin miqrasiya siyasətində baş verən yeniliklər, eləcə də xaricdə yaşayan və işləyən azərbaycanlıların sayındakı dinamika nikah statistikasına da təsirsiz ötüşmür. Digər tərəfdən, ailə institutuna münasibətdə baş verən dəyişikliklər, nikah yaşının yüksəlməsi və ümumilikdə ölkədə nikahların sayındakı azalma da bu göstəricilərə təsir edən əsas amillərdən biri kimi qiymətləndirilir.

■ **Məsələyə münasibət bildirən sosioloq Üzeyir Şəfiyev hesab edir ki, beynəlxalq nikahların dinamikasını qiymətləndirərkən cəmiyyətin son illərdə keçdiyi sosial transformasiyanı nəzərə almaq lazımdır.**

Onun sözlərinə görə, əvvəllər Azərbaycan cəmiyyəti daha konservativ idi və əcnəbilərlə nikahlara birmənalı yanaşılmırdı. İctimai qınaq və ailənin fərd üzərində nəzarəti bu cür nikahların sayına təsir göstərən əsas amillərdən biri idi. Müstəqillikdən sonra ölkənin dünyaya açılması, xarici ölkələrlə əlaqələrin genişlənməsi, insanların təhsil, iş və digər səbəblərlə xaricə üz tutması cəmiyyətdə liberal dəyərlərin güclənməsinə səbəb olub. Bunun nəticəsində əcnəbilərlə nikahlara münasibət də daha tolerant xarakter alıb. Bununla yanaşı, ekspert vurğulayır ki, statistikadakı “əcnəbi ilə nikah” anlayışı hər zaman fərqli millətlə ailə qurmaq demək deyil. Onun sözlərinə görə, bu nikahların əhəmiyyətli hissəsi Türkiyə, Gürcüstan və Rusiyada yaşayan Azərbaycan əsilli şəxslərlə bağlanır. Yəni hüquqi baxımdan tərəflərdən biri əcnəbi sayılsa da, milli və mədəni baxımdan eyni kökə malik ola bilərlər.

> “
>
> *Cari ilin ilk altı ayında qeydə alınan azalma əsasında uzunmüddətli nəticə çıxarmaq düzgün deyil*

Ü. Şəfiyev bildirir ki, beynəlxalq nikahların artmasına təsir edən amillər arasında xaricdə təhsil almaq, işləmək, karyera qurmaq və miqrasiya prosesləri xüsusi yer tutur. Bununla yanaşı, bəzi hallarda nikahdan oturum icazəsi və ya əmək bazarına çıxış əldə etmək məqsədilə də istifadə olunurdu. Məhz buna görə Azərbaycan qanunvericiliyində bu sahədə müəyyən məhdudiyyətlər tətbiq edilib. Ekspert hesab edir ki, bu dəyişikliklər formal nikahların qarşısının alınması və miqrasiya proseslərinin tənzimlənməsi baxımından müsbət addımdır.

Sosioloqun fikrincə, cari ilin ilk altı ayında qeydə alınan azalma əsasında uzunmüddətli nəticə çıxarmaq düzgün deyil. O hesab edir ki, bunun tendensiya olub-olmadığını söyləmək üçün ən azı bir neçə ilin statistikası təhlil edilməlidir.

Ekspertin qənaətinə görə, cəmiyyətdə dəyərlər sisteminin daha açıq və tolerant xarakter alması fonunda yaxın illərdə əcnəbilərlə bağlanan nikahların yenidən artması daha real görünür. Onun fikrincə, mövcud azalma hələlik davamlı tendensiya kimi qiymətləndirilə bilməz.

✍ ***Sevinc***

## Energetika

***Azərbaycanın enerji tarixində yeni səhifə açılıb. İyirmi il ərzində dünyanın ən mühüm enerji layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəmərinin operatoru kimi fəaliyyət göstərən BP bu funksiyanı SOCAR-a təhvil verib. BTC ilə yanaşı, Cənubi Qafqaz Boru Kəməri (CQBK) sistemləri üzrə vahid operatorluğun da milli şirkətə keçməsi təkcə idarəetmə dəyişikliyi deyil, həm də Azərbaycanın enerji sektorunda formalaşmış peşəkar potensialın və beynəlxalq etimadın göstəricisi kimi qiymətləndirilir. Bəs bu dəyişiklik ölkənin enerji siyasəti, iqtisadiyyatı və beynəlxalq nüfuzu baxımından hansı yeni imkanlar yaradır?***

# Enerji tariximizdə yeni səhifə



BTC boru kəməri 2006-cı ildə istismara veriləndən bəri Azərbaycanın enerji strategiyasının əsas sütunlarından biri hesab olunur. Xəzər dənizində hasil olunan neftin Gürcüstan ərazisindən keçərək Türkiyənin Aralıq dənizi sahilində yerləşən Ceyhan limanına çatdırılması ölkənin dünya enerji bazarlarına birbaşa çıxışını təmin edib. Son 20 ildə bu layihə Azərbaycanın ixrac potensialının genişlənməsində, valyuta gəlirlərinin artmasında və regionun enerji təhlükəsizliyinin möhkəmlənməsində mühüm rol oynayıb.

İndi isə layihənin tarixində yeni mərhələ başlayır. BTC üzrə operatorluğun, eləcə də BTC və CQBK sistemləri üzrə vahid operatorluğun SOCAR-a təhvil verilməsi rəsmiləşdirilib. Bununla da boru kəmərlərinin gündəlik istismarı, texniki idarəetməsi və əməliyyat proseslərinə rəhbərlik milli şirkət tərəfindən həyata keçiriləcək. Mütəxəssislərin fikrincə, bu qərar təsadüfi deyil. Son illərdə SOCAR istər hasilat, istər emal, istərsə də beynəlxalq enerji layihələrində iştirak baxımından geniş təcrübə toplayıb. Operatorluğun milli şirkətə həvalə edilməsi onun texniki imkanlarına, insan resurslarına və beynəlxalq standartlara uyğun fəaliyyət qabiliyyətinə verilən etimadın göstəricisi hesab olunur.

Bununla yanaşı, ekspertlər vurğulayırlar ki, operatorun dəyişməsi layihənin səhmdar strukturuna və tərəfdaşlıq modelinə təsir göstərmir. BP və digər beynəlxalq şirkətlər layihədə iştiraklarını davam etdirəcəklər. Dəyişiklik əsasən əməliyyat idarəçiliyini əhatə edir və tərəflər arasında uzun illər formalaşmış əməkdaşlığın yeni mərhələyə keçdiyini göstərir.

İqtisadi baxımdan da bu addımın əhəmiyyəti böyükdür. Yerli mütəxəssislərin daha geniş məsuliyyət daşıması, idarəetmə təcrübəsinin ölkə daxilində formalaşması və yüksək ixtisaslı kadrların yetişməsi Azərbaycanın enerji sektorunun institusional inkişafına töhfə verə bilər. Bu təcrübə gələcəkdə digər beynəlxalq enerji layihələrində də SOCAR-ın rolunun genişlənməsinə zəmin yarada bilər.

Digər mühüm məqam isə Azərbaycanın beynəlxalq enerji bazarındakı mövqeyi ilə bağlıdır. Avropanın enerji mənbələrini şaxələndirməyə çalışdığı, yeni nəqli marşrutlarının formalaşdığı bir dövrdə BTC və CQBK kimi strateji infrastrukturun uğurla idarə olunması ölkənin etibarlı tərəfdaş statusunu daha da gücləndirə bilər. Bununla belə, operatorluğun dəyişməsi SOCAR qarşısında yeni məsuliyyətlər də yaradır. Boru kəmərlərinin təhlükəsiz istismarı, ekoloji standartlara riayət olunması, əməliyyatların fasiləsiz təşkili və beynəlxalq tərəfdaşlarla koordinasiyanın yüksək səviyyədə saxlanılması əsas prioritetlər olacaq.

■ **Mövzu ilə bağlı enerji məsələləri üzrə ekspert Zəfər Vəliyev bildirib ki,1 iyul 2026-cı il tarixindən etibarən Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəmərinin operatorluğu “BP Exploration (Caspian Sea) Limited” şirkətindən SOCAR-ın törəmə müəssisəsi olan “SOCAR Midstream Operations” MMC-yə keçib.** Onun sözlərinə görə, ötürülmə Səngəçal terminalının ərazisində yerləşən obyektlər istisna olmaqla, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçən BTC obyektlərini və fəaliyyətlərini, eləcə də BTC/CQBK-yə aid ümumi fəaliyyətləri əhatə edir. Ekspert qeyd edib ki, təchizat zəncirinin sabitliyi və enerji axınlarının təhlükəsizliyi baxımından BTC mühüm əhəmiyyət kəsb edir. O vurğulayıb ki, kəmərin fəaliyyətdə olduğu 20 il ərzində BTC qlobal neft bazarlarına etibarlı neft ixracı xətti kimi enerji təhlükəsizliyinin gücləndirilməsində, qlobal neft bazarlarında yüngül-ağır neft balansının qorunub saxlanılmasında, ehtiyatların formalaşmasında və emal güclərinin konfiqurasiyasına uyğun xammal yüklənməsinin təmin edilməsində mühüm rol oynayıb. Onun sözlərinə görə, 8 iyun 2026-cı il tarixindən etibarən Qərb İxrac Boru Kəmərinin (Bakı-Supsa) Azərbaycan və Gürcüstan hissəsi, o cümlədən Supsa terminalı və onunla əlaqədar infrastruktur müvafiq olaraq Azərbaycan tərəfdən ”SOCAR Midstream Operations” MMC-yə, Gürcüstan tərəfdən isə Gürcüstan Neft və Qaz Korporasiyasına (GOGC) təhvil verilib.

> “
>
> *BTC, CQBK və Qərb İxrac Boru Kəməri kimi ixrac güclərinin operatorluğunun SOCAR-a ötürülməsi şirkətin illər ərzində formalaşdırdığı milli kadr potensialından və ixrac güclərinin idarə edilməsində topladığı təcrübədən irəli gəlir*

Ekspert bildirib ki, BTC, CQBK və Qərb İxrac Boru Kəməri kimi ixrac güclərinin operatorluğunun SOCAR-a ötürülməsi şirkətin illər ərzində formalaşdırdığı milli kadr potensialından və ixrac güclərinin idarə edilməsində topladığı təcrübədən irəli gəlir.

Ekspert əlavə edib ki, Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar Rusiyanın enerji daşıyıcılarına tətbiq olunan beynəlxalq məhdudiyyətlər Xəzər regionunun karbohidrogen ehtiyatlarına və Azərbaycanın ixrac güclərinə marağı artırıb. Bu baxımdan, qarşıdakı illərdə Azərbaycanın ixrac güclərinin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin öz cəlbediciliyini qoruyub saxlayacağı gözlənilir.

✍ ***Sevinc***

# Yay aylarında iştahadan niyə kəsilirik?

***Yay aylarında insanların əksəriyyətinin "İştaham yoxdur", "Yemək istəmirəm", "Gün ərzində yalnız maye qəbul edirəm" kimi şikayətləri ilə üzləşirik. Bəziləri bunu normal hal hesab etsə də, bəzən iştahanın azalması orqanizmdə baş verən fizioloji dəyişikliklərin nəticəsi, bəzi hallarda isə müəyyən xəstəliklərin ilkin əlaməti ola bilər. Mövzu ilə bağlı "Həftə içi" qəzetinə danışan terapevt Nərminə Abbasova deyir ki, buna görə də yay mövsümündə qidalanmaya diqqət yetirmək və iştahanın azalmasının səbəblərini öyrənmək lazımdır.***



> *"Enerji tələbatı azaldığı üçün beynin iştah mərkəzinə göndərilən siqnallar da dəyişir və nəticədə insan əvvəlki qədər aclıq hiss etmir*

## Cəmiyyət

Terapevt qeyd edir ki, insan orqanizmi ətraf mühitin temperaturuna uyğunlaşmaq qabiliyyətinə malikdir. Havanın temperaturu yüksəldikcə bədən istiliyini sabit saxlamaq üçün müxtəlif mexanizmlər işə düşür.

"Güclü tərləmə, qan damarlarının genişlənməsi və maddələr mübadiləsində baş verən dəyişikliklər nəticəsində orqanizm daha az enerji sərf etməyə çalışır. Enerji tələbatı azaldığı üçün beynin iştah mərkəzinə göndərilən siqnallar da dəyişir və nəticədə insan əvvəlki qədər aclıq hiss etmir", həkim deyir. Terapevtin sözlərinə görə, yüksək temperatur zamanı susuzlaşma riski də artır: "Maraqlıdır ki, insanlar bəzən susuzluğu aclıq kimi deyil, əksinə, iştahasızlıq kimi hiss edirlər. Orqanizmdə maye çatışmazlığı olduqda həzm sistemi də əvvəlki kimi aktiv fəaliyyət göstərmir, mədə şirəsinin ifrazı azalır və qida qəbuluna maraq zəifləyir". Nərminə xanım vurğulayır ki, yay aylarında həyat tərzində baş verən dəyişikliklər də iştahın azalmasına təsir göstərir. İnsanlar daha çox sərin içkilər qəbul edir, meyvə və tərəvəzlə qidalanmağa üstünlük verir, ağır yağlı yeməklərdən uzaq dururlar. Bu, müəyyən mənada sağlam seçim olsa da, gün ərzində yalnız meyvə və ya şirələrlə qidalanmaq düzgün deyil:

"Çünki orqanizmin zülal, vitamin, mineral və digər qida maddələrinə olan ehtiyacı fəsildən asılı olmayaraq qalır.

Bəzi insanlar isti havalarda yalnız axşam saatlarında yemək yeməyə üstünlük verirlər. Bu isə gün ərzində uzun müddət ac qalmağa, axşam isə həddindən artıq qida qəbuluna səbəb olur. Belə qidalanma rejimi həzm sisteminə əlavə yük yaradır, mədə yanması, köp, həzmsizlik və çəki artımı ilə nəticələnə bilər.

İştahanın azalması hər zaman isti hava ilə əlaqəli olmur. Əgər iştahasızlıq uzun müddət davam edirsə, sürətli çəki itkisi, halsızlıq, ürəkbulanma, qarın ağrısı, qızdırma və ya digər narahatedici əlamətlərlə müşayiət olunursa, mütləq həkim müayinəsinə ehtiyac var. Çünki bu hal mədə-bağırsaq sistemi xəstəlikləri, qaraciyər problemləri, qalxanabənzər vəz xəstəlikləri, infeksiyalar və ya digər ciddi sağlamlıq problemlərinin göstəricisi ola bilər. Xüsusilə yaşlı insanlar, azyaşlı uşaqlar, hamilə qadınlar və xroniki xəstəlikləri olan şəxslər yay aylarında qidalanmalarına daha həssas yanaşmalıdırlar. Bu qruplarda iştahasızlıq qısa müddətdə maye-elektrolit balansının pozulmasına və ümumi sağlamlıq vəziyyətinin pisləşməsinə səbəb ola bilər".

Terapevt yay mövsümündə düzgün qidalanmaq üçün bir neçə sadə qaydaya əməl etməyi tövsiyyə etdi. Bildirdi ki, gün ərzində kifayət qədər su içmək, qidaları az-az, lakin tez-tez qəbul etmək, mövsümi meyvə və tərəvəzlərdən istifadə etmək, yağlı və ağır yeməkləri azaltmaq, süd məhsulları, balıq və yağsız ət kimi zülal mənbələrini rasiondan çıxarmamaq lazımdır. Həmçinin qidaların saxlanma şəraitinə ciddi diqqət yetirilməlidir:

"Yayda qida zəhərlənmələri daha çox müşahidə olunduğundan tez xarab olan məhsulların düzgün temperaturda saxlanılması vacibdir. Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, iştahanın müəyyən qədər azalması yay aylarında orqanizmin təbii reaksiyası hesab oluna bilər. Lakin bu vəziyyət uzunmüddətli olarsa və ya sağlamlıqla bağlı digər əlamətlərlə müşayiət olunursa, bunu yalnız mövsümlə əlaqələndirmək düzgün deyil. Vaxtında həkimə müraciət etmək mümkün xəstəliklərin erkən aşkar olunmasına və daha effektiv müalicəsinə imkan verir.

Sağlam həyat tərzi, düzgün qidalanma, kifayət qədər maye qəbulu və günün daha sərin saatlarında fiziki aktivlik həm iştahanın tənzimlənməsinə, həm də yay mövsümünü sağlam şəkildə keçirməyə kömək edən əsas amillərdir".

*✍ Arzu Zeynallı*

# "Bakcell" və Gənclər Fondu "İnnovasiya və Süni İntellekt" üzrə təqaüd proqramının qalibləri ilə görüş keçirib

**"Bakcell" və Azərbaycan Respublikasının Gənclər Fondunun birgə tərəfdaşlığı çərçivəsində həyata keçirilən "İnnovasiya və Süni İntellekt" üzrə təqaüd proqramının qalibləri ilə rəsmi görüş keçirilib.**




Tədbirin əsas məqsədi proqramın qaliblərini bir araya gətirərək onları təşəbbüsün növbəti mərhələsi ilə tanış etmək, innovasiya və süni intellekt sahəsində mövcud imkanlar, gələcək inkişaf istiqamətləri və proqram çərçivəsində yaradılan perspektivlər ətrafında fikir mübadiləsi aparmaq olub. Görüş zamanı iştirakçılar Bakcell və Gənclər Fondunun gənclərin innovasiya potensialının inkişafına yönəlmiş strateji yanaşmaları barədə ətraflı məlumat əldə ediblər.

"Bakcell" və Azərbaycan Respublikasının Gənclər Fondunun birgə tərəfdaşlığı ilə keçirilən "İnnovasiya və Süni İntellekt" üzrə təqaüd proqramı ölkədə dayanıqlı innovasiya mühitinin inkişafını təşviq etməklə yanaşı, texnologiya sahəsində yüksək potensiala malik gənclərin yetişdirilməsinə və gələcəyin rəqabətqabiliyyətli insan kapitalının formalaşmasına dəstək göstərir.

Qeyd edək ki, təqaüd proqramına ümumilikdə 1851 müraciət daxil olub. Çoxmərhələli seçim prosesini uğurla tamamlayan 25 gənc təqaüd qazanıblar. Proqram müddətində qalib gənclər süni intellekt, data analitikası, proqramlaşdırma və UI/UX dizayn istiqamətləri üzrə tədris prosesinə cəlb olunacaq, nəzəri bilikləri real təcrübə ilə birləşdirmək imkanı qazanacaq və rəqəmsal transformasiyanın tələblərinə uyğun yüksəkixtisaslı mütəxəssis kimi yetişəcəklər.

Bakcell haqqında

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir. "Bakcell" müxtəlif ölkələrdə və sahələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibində olan Azerconnect Group-a daxildir.

## ELAN

**Cəfərov Orxan Müşfiq oğluna məxsus AA6696036 seriyalı şəxsiyyət vəsiqəsi itirildiyi üçün etibarsız sayılır.**

## HƏFTƏ REYTİNQ

### Həftənin QAYIDIŞI



Dünyaşöhrətli müğənni Rihanna uzun fasilədən sonra səhnəyə çıxaraq pərəstişkarlarını sevindirib. Cey Zinin "Reasonable Doubt" albomunun 30 illiyi münasibətilə təşkil olunan konsert seriyasının final gecəsində səhnəyə çıxan Rihanna reperlə birlikdə 2009-cu ilin məşhur hiti "Run This Town" mahnısını ifa edib. O, daha sonra "Bitch Better Have My Money" mahnısını səsləndirib.

### Həftənin REKORDU



Fransa millisinin baş məşqçisi Didye Deşam dünya çempionatı tarixində yeni rekorda imza atıb. 57 yaşlı mütəxəssis İspaniya ilə keçirilən yarımfinal görüşündə Fransanı idarə etməklə mundiallarda ən çox oyun keçirən baş məşqçi olub. Fransa həmin qarşılaşmada İspaniyaya 0:2 hesabı ilə məğlub olsa da, Deşam turnir tarixində 26-cı oyununa çıxaraq rekordun yeni sahibi olub.

### Həftənin XƏBƏRİ



Türkiyə millisinin üzvü, futbolçu Kerem Aktürkoğlu ilk dəfə ata olub. Bu barədə "Fənərbaxça" futbol klubunun "X" hesabında paylaşım edilib. Bildirilib ki, məşhur futbolçu övladının dünyaya gəlməsi xəbərini məşq zamanı alıb. Məlumata görə, Aktürkoğlu ilk qız övladına Elif adını verib. Qeyd edək ki, "Fənərbaxça"nın futbolçusu Kerem Aktürkoğlu həyat yoldaşı Selin Aktürkoğlu ilə keçən il evlənib.

### Həftənin HƏBSİ



Ermənistanın müxalif "Çiçəklənən Ermənistan" partiyasının sədri Qagik Tsarukyan iki ay müddətinə azadlıqdan məhrum edilib. Bu barədə "Armenia Today" məlumat yayıb. Bildirilib ki, Tsarukyan dələduzluq və cinayət yolu ilə əldə edilmiş vəsaitlərin leqallaşdırılması ittihamı ilə həbs edilib. Qeyd edək ki, bir müddət əvvəl hüquq-mühafizə orqanlarının əməkdaşları Qaqik Tsarukyanın evində axtarış aparmışdı.

### Həftənin SEVİNCİ




İspaniya millisinin 2026-cı il dünya çempionatının finalına yüksəlməsi ölkədə böyük sevinc yaradıb. Kral ailəsinin də İspaniyanın DÇ-nin finalına vəsiqə qazanmasını sevinclə qarşıladığını əks etdirən görüntülər sosial şəbəkələrdə yayılıb. Bildirilir ki, Kral VI Felipe, Kraliça Letisiya, Şahzadə Leonor və İnfanta Sofiyanın komandanın həlledici qarşılaşmasında milli yığmaya dəstək olmaq üçün yaxın günlərdə finalın keçiriləcəyi şəhərə səfər etməsi gözlənilir.

### Həftənin İSTEFASI



Ukrayna Ali Radası səs çoxluğu ilə Baş nazir Yuliya Sviridenkonun istefasını təsdiqləyib. Parlamentin 258 üzvü qərarın lehinə səs verib. Ukrayna qanunvericiliyinə uyğun olaraq, hökumət tam tərkibdə istefaya göndərilib. Qeyd edək ki, Yuliya Sviridenko 2025-ci il iyulun 17-də Ukraynanın Baş naziri vəzifəsinə təyin edilmişdi. Yeni baş nazir postuna əsas namizəd "Naftoqaz"ın rəhbəri Sergey Koretski hesab olunur.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU



Bəşəri cinayətlər törədənlər yenidən məhkəmə qarşısında

# Xanımların xarici ər seçimi

**Üzeyir Şəfiyev,**
sosioloq

Cari ilin ilk altı ayında qeydə alınan azalma əsasında uzunmüddətli nəticə çıxarmaq düzgün deyil.

▸▸ Səh. 7

## STATİSTİKA



**■ Bu ilin birinci yarısında ölkə ərazisindən keçən tranzit yüklərin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 10,1 faiz artaraq 7,7 milyon tonu ötüb.**

Bundan əlavə, hava nəqliyyatı ilə daşınan sərnişinlərin sayı 5 faiz artaraq 1,9 milyon nəfərə, tranzit sərnişinlərin sayı isə 40 faiz artaraq 276 min nəfərə çatıb.

Görülən işlər nəticəsində ilin birinci yarısında Azərbaycanın nəqliyyat sektoru üzrə gəlirləri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 8 faiz artaraq 7,8 milyard manatı ötüb. Bununla da sektorun ÜDM-də payı 6,7 faizdən 7,3 faizə yüksəlib.



▸▸ Səh. 9

# Kamera quraşdırarkən diqqətli olun!